## Borrell məlumat verdi

### Aİ-nin Ermənistandakı missiyası ilk patrulunu həyata keçirib



**“Avropa İttifaqının Ermənistandakı Missiyası (EUMA) bu gün ilk patrulunu həyata keçirərək fəaliyyətə başladı”.**

APA xəbər verir ki, bunu Aİ-nin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozep Borrell "Twitter"də bildirib. "EUMA insanların təhlükəsizliyinin təmin olunmasına töhfə verəcək, bölgədə etimad yaradacaq və Ermənistanla Azərbaycan arasında sülh prosesində Aİ-nin səylərini dəstəkləyəcək", - Borrel qeyd edib.



## Bu il Bakı metrosundan istifadə edənlərin sayı 2 milyondan çox artıb

**Cari ilin yanvar ayında metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı açıqlanıb.**

Dövlət Statistika Komitəsi xəbər verir ki, yeraltı nəqliyyat vasitəsindən istifadə edənlərin sayı 16,3% artaraq 17,3 mln. nəfər olub. Metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 14,9 milyon nəfər olmuşdu.


❒ № 32 (5793) 2023-cü il

Qiymıəti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 21 fevral 2023-cü il (çərşənbə axşamı)




# Türkiyədə daha bir güclü zəlzələ olub

### Dağıntıların olduğu bildirilir

**Türkiyədə daha bir güclü zəlzələ meydana galib.**

Bu barədə AFAD məlumat yayıb. Bildirilir ki, 5,8 bal gücündə olan zəlzələnin episentri Hatay əyalətində yerləşib.

Xatırladaq ki, bir neçə dəqiqə əvvəl eyni ərazidə 6,4 bal gücündə zəlzələ olub.

KİV-lərin məlumatına əsasən, zəlzələ nəticəsində dağıntıların olduğu ehtimal edilir.

*Qeyd olunub ki, dağıntılar altında insanların olduğu bildirilir.*



## Münhen görüşü İrəvanın son şansı olacaq

### Cənubi Qafqaz oxundakı proseslərdə Vaşinqtonun önə çıxmaq şansları artır

**Münhendə Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinken və Ermənistan Baş naziri Nikol Paşinyanla birgə görüşü oldu.**

Bu dəfə də Ermənistan tərəfindən deyilənlər, "Baş nazir Münhendə olmayacaq", "liderlərin görüşü gözlənilmir" kimi xəbərlər öz təsdiqini tapmadı. Konfrans ərəfəsində Ermənistan Baş naziri ilə Azərbaycan Prezidenti arasında bir yox, iki görüş gerçəkləşdi.

(səh.3)

## Zəlzələ bölgəsində bütün yaşayış evləri sıfırdan 4 mərtəbəli tikiləcək

### Rəcəb Tayyib Ərdoğan Hatayda keçirdiyi brifinqdə bildirib



**Konteyner sayını 200 minə qədər artıra biləcəyik.**

APA xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Hatayda keçirdiyi brifinqdə bildirib.

Onun sözlərinə görə, zəlzələ bölgəsində bütün yaşayış evləri sıfırdan maksimum 4 mərtəbəli tikiləcək.

Ərdoğan qeyd edib ki, 1 milyon 684 min vətəndaşın yaşayış ehtiyacı ödənilib.

# Bayden Ukraynada

### ABŞ 500 milyon dollarlıq yeni hərbi yardım paketini elan etdi



Volodimir Zelenski: “Baydenin Ukraynaya səfərinin nəticəsi döyüş meydanında da hiss olunacaq”

**ABŞ Prezidenti Co Bayden gözlənilmədən Kiyevə səfər edib. Ukrayna Prezidenti Volodimir Zelenski amerikalı həmkarını Mixaylovsk meydanında qarşılayıb.**

Zelenski-Bayden arasında təkbətək görüş 40 dəqiqə davam edib. Daha sonra geniş tərkibli görüş olub. Co Bayden deyib ki, Ukrayna ABŞ-dən 500 milyon dollarlıq yeni hərbi yardım paketi alacaq. Onun sözlərinə görə, Ukraynaya dəstək üçün beynəlxalq koalisiya qurmaq ABŞ administrasiyası üçün böyük çağırışa çevrilib: "Biz Atlantik okeanından Sakit okeana kimi bütün dünyada 50-dən çox ölkənin daxil olduğu koalisiya qurmuşuq".

(səh.2)

# Regionlarda ətin qiyməti bahalaşdı

### Əsas səbəb bazara məhsul çıxaranların xərclərinin artmasıdır



**Paytaxtda ətin bahalaşması regionlardakı qiymət artımı ilə əlaqələndirilir.**

Yayılan xəbərlərə görə, bölgələrdə dana və quzu ətinin qiyməti bahalaşıb. İsmayıllıda və Şamaxıda ət satışı ilə məşğul olan satıcılar "Trend"ə bildiriblər ki, ətin qiymətində 2 manat artım müşahidə edilir. Onların sözlərinə görə, bir həftədir ki, bazarda quzu ətinin qiyməti 14 manatdan 15 manata, mal ətinin qiyməti isə 11 manatdan 13 manata qalxıb.

(səh.3)



## Qərar fevralın 22-də elan olunacaq

### Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın Ermənistana qarşı işi üzrə qərarını açıqlayacaq

Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) fevralın 22-də İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işi üzrə (Azərbaycanın Ermənistana qarşı) əlavə müvəqqəti tədbirlərin müəyyən edilməsi məqsədilə Azərbaycanın sorğusu üzrə qərarını açıqlayacaq.

Bu barədə Haaqa məhkəməsi məlumat yayıb.

*Qeyd olunub ki, məhkəmə hakim Coan Donoqunun sədrliyi ilə Sülh Sarayında baş tutacaq.*

## Vəfat edən olmayıb

### 6 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 6 yeni yoluxma faktı qeydə alınıb, 7 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 828 358 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 818 131 nəfər müalicə olunaraq sağalıb, 10 103 nəfər vəfat edib, aktiv xəstə sayı 124 nəfərdir.

*Ölkədə son sutka ərzində 579, hazırkı dövrədək isə 7 514 447 test aparılıb.*

## İmkan yaradılmalıdır

### Azərbaycanlı tələbələrə quru sərhəddən istifadəyə icazə verilməlidir



**“Türkiyədə təhsil alan azərbaycanlı tələbələrə quru sərhəddən istifadə imkanının yaradılması təklif olunur”.**

Bunu millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra qardaş ölkədə ali məktəblərdə təhsil onlayn, distant formaya keçdi:

"Türkiyədə 30 minə yaxın Azərbaycan vətəndaşının təhsil aldığı nəzərə alsaq, həmin gənclərin ölkəmizə qayıdışına dəstək olunması vacibdir.

(səh.3)



## Laçın yolundakı aksiya sonuna qədər davam edəcək

### “Rəsmi Bakı Ermənistanı sülh müqaviləsinə yönləndirir”

(səh.4)



## Ekoloji aksiya nəticəsini verir

### Vardanyanın “nəfəsliyi” bağlanır

(səh.2)

# Paşinyanın açıqlaması ucuz publikaya hesablanıb

## Qarabağdakı separatçılıq hərəkatı Ermənistan üçün fəlakət oldu



**Ermənistan bir tərəfdən Azərbaycanla sülh müqaviləsi bağlamağa hazır olduğunu bəyan etsə də, digər tərəfdən ərazi bütövlüyümüzü rədd etməklə yanaşı, Qarabağdakı separatçılara dəstəyini gücləndirməkdən də çəkinmir. İrəvan hökumətinin başçısı separatçıların hansısa "hərəkata başlama gününü" təbrik etməkdən geri qalmır.**

Baş nazir Nikol Paşinyan Qarabağdakı separat hərəkatıın başlamasının 35 illiyini "təbrik" edib. O, müraciət yayaraq bildirib ki, 1988-ci il fevralın 20-də başlayan separatçılıq hərəkatı "Ermənistan tarixində milli oyanış, birlik və azadlıq mübarizəsinin simvolu kimi qalacaq". Paşinyanın sözlərinə görə, separatçılıq hərəkatı Ermənistan dövlətçiliyinin bərpası yolunda atılan ilk addım idi: "Bununla da biz azad və müstəqil yaşamaq, taleyimizi qurmaq, gələcəyimizi idarə etmək əzmini bərpa etdik. Qarabağ hərəkatı xalqın öz hüquqlarını müdafiə etmək və öz torpaqlarında layiqli həyat sürmək hüququnu və iradəsini ifadə etməli idi". Paşinyan daha sonra iddia edib ki, 35 ildən sonra da Qarabağ erməniləri ciddi sınaqlarla üzüzədir. O, hazırkı vəziyyətdə Qarabağda yaşayan ermənilərin guya, "mühasirədə" olduğunu bildirib: "Bu gün də mühasirədə olan soydaşlarımız öz hüquqlarını və təhlükəsizliyini qorumaq üçün öz iradələrini ifadə etməyə məcburdurlar. Dəfələrlə qeyd etdiyim kimi, Azərbaycanın bu hərəkətlərinin bir məqsədi var: Qarabağ xalqının öz vətənində yaşamaq iradəsini qırmaq. Amma əminəm ki, bu, sarsılmazdır". Baş nazir müraciətində Qarabağ ermənilərinə "Artsax vətəndaşları" deyə xitab edib. Daha sonra qeyd edib ki, "möhkəm və sarsılmaz olun".

Qondarma rejimin rəhbəri Araik Arutyunyan da Paşinyanla paralel sərsəmləyib. Separatçı bildirib ki, erməni xalqı itirdikləri əraziləri geri qaytarmaq üçün mübarizəyə hazır olmalıdır: "Müharibəyə hər zaman hazır olmalıyıq, çünki bizim itirilmiş ərazilərimiz var".

**Ermənistanda və Qarabağda cücərən revanşizm xəstəliyi ilə bağlı "Şərq"ə danışan siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Qarabağdakı separatçılıq hərəkatı Ermənistan üçün fəlakət oldu. Professorun sözlərinə görə, indiki məqamda Paşinyanın separatçıları "yubiley" münasibəti ilə təbrik etməsi ucuz publikaya hesablanıb:** "Hər Münhen konfransında Paşinyanın natamamlığı, naşılığı, siyasətdən nə qədər uzaq olması reallığı daha çox üzə çıxır. Özünü "haqlı" çıxartmağa çalışsa da, əksinə, çıxılmaz duruma düşərək rüsvay olur. Artıq Ermənistanın özündə belə Paşinyanın onları təmsil etməsindən xəcalət çəkirlər. Separatçıların "təbriki" sülh müzakirələrindən və danışıqlardan uzaqlaşmaq siyasətidir və Ermənistan üçün təhlükəli gedişdir. İrəvanı qızışdıran, boş yerə "ruhlandıran" iki ölkə var - Fransa və İran. Lakin Münhendə Ermənistanla bərabər Fransa da uduzdu və təşəbbüsü ABŞ ələ keçirdi. Paşinyan çalışır ki, prosesdən Rusiyanı tamamilə kənarlaşdırsın. Ona görə də KTMT ilə bağlı ittihamlar səsləndirir. Əslində bizim üçün müzakirələrə kimlərin vasitəçilik etməsinin çox da fərqi yoxdur. Məqsədimiz odur ki, Ermənistan sülhlə bağlı əsas tələblərimizi qeyd-şərtsiz qəbul etsin. Bunu Blinkenin, Şarl Mişelin, yaxud Putinin edəcəyi məsələsi bizim üçün sadəcə variantlardır. İranın isə qərəzli mövqeyi, Ermənistanla yaxınlığı bizə məlumdur. Dövlət başçısı İranla bağlı danışarkən cənub qonşumuzu terrorla məşğul olan dövlət kimi dəyərləndirdi".

**C.Nuriyev əlavə edib ki, Araik Arutyunyan isə konkret canidir:** "44 günlük müharibədə ağır məğlubiyyətə düçar olmuş ermənilərin yenidən müharibəyə çağrılması ağılsızlıqla yanaşı, həm də intihardır. Növbəti erməni həyasızlığıdır. "İtirilmiş ərazilərin qaytarılması" nağıldır. Tezliklə Xocalını ermənilərdən təmizləyəcəyik. Əgər özlərini belə aparmağa davam etsələr, Xankəndini də itirəcəklər. Şuşada, Cıdır düzündə rəqs edən, "Qarabağ Ermənistandır" deyən Paşinyanın aqibəti necə oldusa, bu gün "müharibədən" dəm vuran separatçıların da aqibəti o cür olacaq. Bəlkə də Araik sərsəm açıqlamalarla bizə mesaj ötürür, demək istəyir ki, "gəlin Xankəndini də nəzarətə götürün, canım qurtarsın".

**İsmayıl Qocayev**



# Qərbi Azərbaycan İcması Ermənistan hökumətini danışıqlara çağırıb

**Ermənistanın Baş naziri Nikol Paşinyan 20 fevral 1988-ci ildə Azərbaycanın Xankəndi şəhərində nümayişlərin başlamasının 35-ci ildönümü ilə bağlı bəyanat verərək, həmin aksiyanın guya kortəbii şəkildə başladığını iddia edib və onu insan hüquqlarına aid məsələ kimi təqdim etməyə cəhd edib.**

Qərbi Azərbaycan İcmasının mətbuat xidmətindən verilən xəbərə görə, əslində həmin nümayişlər xeyli əvvəlcədən hazırlanmış olmaqla, Azərbaycana qarşı ərazi iddiasına və azərbaycanlılara qarşı irqi ayrı-seçkiliyə xidmət edən sistemli bir qəsdin tərkib hissəsi idi.

"Ermənistan tərəfi bu nümayişlərdən xeyli əvvəl Azərbaycana qarşı ərazi iddiası ilə çıxış etmiş və Ermənistan SSR-də yaşayan azərbaycanlılara qarşı zorakılıq yolu ilə total etnik təmizləməyə başlamışdı. Ermənistan tərəfinin başlatdığı bu proseslər insan hüquqlarına və beynəlxalq hüquqa zidd olmaqla mono-etnik məkanın yaradılmasına və ərazi ekspansiyasına xidmət edir. Məhz bu irqçi və aqressiv yanaşma ilə Ermənistan öz ərazisindən azərbaycanlıları qovub, Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərini işğal edib və oradan da bütün azərbaycanlıları qovub.

Azərbaycan Respublikasının Ermənistanın hərbi hücumu və işğalına qarşı 2020-ci ildə apardığı özünümüdafiə əməliyyatının qələbə ilə başa çatması ədalətin bərpa olunması istiqamətində mühüm addım olmaqla iki ölkə arasında sülh imkanlarını artırıb. Ermənistan rəhbərliyinin yaranmış bu unikal imkandan istifadə edərək, sülh üçün konkret addımlar atmaq, ələlxüsus, indiki Ermənistan ərazisindən qovduğu azərbaycanlıların sülh yolu ilə, ləyaqətli və təhlükəsiz şəkildə geriyə qayıtmasına imkan yaratmaq əvəzinə ərazi iddiasını və etnik təmizləməni təcəssüm edən bədnam bir hadisənin ildönümü münasibəti ilə bəyanat verməsi təəssüf doğurur.

Azərbaycanlıların qayıdıb öz evlərində yaşamasına imkan verməyən Ermənistan hökumətinin, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni etnik mənsubiyyəti olan Azərbaycan vətəndaşlarının hüquqları məsələsi ilə spekulyasiya etməsi riyakarlıqdır.

İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hələ də öz evlərinə qayıda bilməməsi, bu ölkədə mono-etnik dövlətçilik, etnik təmizləmə və sistematik irqi ayrı-seçkilik vəziyyətinin davam etməsi böyük ədalətsizlikdir və bu, davamlı sülhün bərqərar olunmasına böyük əngəl törədir.

Qərbi Azərbaycan İcması Ermənistan hökumətini öz ərazisindən qovduğu azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz şəraitdə və ləyaqətlə öz yurdlarına qayıda bilmələri üçün müvafiq beynəlxalq proses çərçivəsində İcma ilə dərhal danışıqlara başlamağa çağırır", - qeyd olunub.

# Bayden Ukraynada

## ABŞ 500 milyon dollarlıq yeni hərbi yardım paketini elan etdi



Volodimir Zelenski: "Baydenin Ukraynaya səfərinin nəticəsi döyüş meydanında da hiss olunacaq"

**ABŞ Prezidenti Co Bayden gözlənilmədən Kiyevə səfər edib. Ukrayna Prezidenti Volodimir Zelenski amerikalı həmkarını Mixaylovsk meydanında qarşılayıb. Zelenski-Bayden arasında təkbətək görüş 40 dəqiqə davam edib. Daha sonra geniş tərkibli görüş olub.**

Co Bayden deyib ki, Ukrayna ABŞ-dən 500 milyon dollarlıq yeni hərbi yardım paketi alacaq. Onun sözlərinə görə, Ukraynaya dəstək üçün beynəlxalq koalisiya qurmaq ABŞ administrasiyası üçün böyük çağırışa çevrilib: "Biz Atlantik okeanından Sakit okeana kimi bütün dünyada 50-dən çox ölkənin daxil olduğu koalisiya qurmuşuq".

### "Kiyevə buna görə gəldim..."

ABŞ Prezidenti Co Bayden deyib ki, Ukrayna xalqı demokratiyanın mənasını anlamağa kömək etdi və özünəməxsus şəkildə özünü göstərdi: "Son səfərdən bəri çox şey dəyişdi. Dəhşətli şeylər baş verdi - işğal. Amma eyni zamanda ukraynalılar özlərini elə bir şəkildə göstərdilər ki, çox az sayda xalq bunu edə bilərdi. Və onlar bizə demokratiyanın mənasını anlamağa kömək etdilər. ABŞ-nin Rusiya təcavüzünə qarşı müharibədə Ukraynanı dəstəklədiyinə şübhə yeri qoymamaq vacibdir. Demokratiyaya, Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə sarsılmaz sadiqliyimizi bir daha təsdiq etməyə gəldim".

### "Baydenin Ukraynaya səfərinin nəticəsi döyüş meydanında da hiss olunacaq"

Ukrayna Prezidenti Volodimir Zelenski bildirib ki, ABŞ rəhbəri Co Baydenin Ukraynaya səfərinin nəticəsi döyüş meydanında da hiss olunacaq: "Bu həftə artıq bizim dönməzliyimiz, Rusiya təcavüzünə qarşı mübarizəmizin bir ili tamam olur. Çox simvolikdir ki, biz cənab prezidentlə iki görüşlə dayanıqlılığımızı, əyilməzliyimizi gücləndiririk: mənim və komandamın dekabrda Vaşinqtona səfəri və bu gün Prezident və onun komandasının Kiyevə səfəri. Bu səfərlərin nəticələri şübhəsiz ki, döyüş meydanında, əsgərlərimizin güclənməsində və ərazilərimizin azad edilməsində hiss olunacaq".

### "Rusiyanın revanş cəhdlərinin heç bir şansı yoxdur"

Zelenski Rusiyanın revanş cəhdlərinin heç bir şansının olmayacağını bildirib. O, ABŞ-dən onun ölkəsinə güclü hərbi dəstək paketi gözlədiyini açıqlayıb: "Bu gün biz Ukraynaya tədarük edilə bilən uzaq mənzilli silahlar məsələsini də müzakirə etdik, həmçinin daha əvvəl tədarük edilməyən silahlar barədə danışdıq. Bu, çox vacibdir".

Zelenski Ukraynaya güclü müdafiə dəstəyi paketinin gözləndiyini açıqlayıb: "Hazırda belə güclü bir paket Rusiyanın revanş cəhdlərinin heç bir şansının olmayacağına dair birmənalı siqnaldır. Biz birlikdə şəhərlərimizi, xalqımızı rus terrorundan qoruyacaq və qələbəmiz üçün təkanı gücləndirəcəyik". O, müharibədə hadisələrin gələcək inkişafı və perspektivləri ilə bağlı ABŞ və Ukraynanın ortaq baxışlarının olduğunu deyib: "Biz həm ikitərəfli səviyyədə, həm də G7 çərçivəsində sanksiyaları sərtləşdirmək üçün birlikdə çalışırıq".

### "Putin Baydenin Kiyevə səfərinə zəmanət verib"

Rusiyalı politoloq Sergey Markov deyib ki, Kreml Baydenin Kiyevə səfərinə zəmanət verib. Onun sözlərinə görə, bu məlumat rəsmi təsdiq olunmayıb: "Rusiya Prezidenti Vladimir Putin Vaşinqtonun istəyi ilə müəyyən qapalı kanallar vasitəsilə Baydenin Kiyevə səfərinə təhlükəsizlik zəmanəti verib. Ondan sonra Bayden Kiyevə gəlib".

### "Baydenin qəfil səfərinin xüsusi əhəmiyyəti var"

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Co Bayden keçmiş Prezident Barak Obamanın kabinetində vitse-prezident olduğu illərdən Ukrayna ilə məşğul olur. Obama Ukraynanı Baydenə tapşırmışdı, o da tez-tez Kiyevə gedər və keçmiş Prezident Petro Poroşenko ilə müzakirələr aparardı:** "Co Baydenin son ana qədər gizli saxlanılan indiki səfərinin xüsusi əhəmiyyəti var. Birincisi, Bayden Amerikanın Ukraynaya yeni yardımlarını Kiyevdə ikən açıqlamağı lazım bilib. İkincisi, Bayden Rusiyanın genişlənən hücumları fonunda Kreml sahibi Vladimir Putinə mesaj yollayıb ki, ABŞ Ukraynanın məğlub olmasına imkan verməyəcək və Ukrayna Prezidenti V.Zelenskini əks-hücuma həvəsləndirəcək. Üçüncüsü, Bayden döyüşlərin gərgin olduğu hazırkı günlərində Kiyevə getməklə Avropa ölkələrinə Ukraynaya hərbi texnika göndərmək məsələsində Amerika qədər cəsarətli olmağı işarə edib".

**İsmayıl**

# Ekoloji aksiya nəticəsini verir

## Vardanyanın "nəfəsliyi" bağlanır



**Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov Əliyev-Paşinyan görüşünün Münhen raundunu "Şərq"ə dəyərləndirib.**

Sabiq XİN başçısının sözlərinə görə, bu görüşdən sonra bəyan oldu ki, sərhəd-keçid məntəqələri əlavə olunacaq: "Laçın-Xankəndi yolunda ictimai nəzarət dövlət qurumları tərəfindən həyata keçiriləcək. Nəzarət olan yerdə bölgəyə müxtəlif radikal, terrorçuların girişi mümkün deyil.

Radikal mövqedə dayanan Ruben Vardanyan *(red.özünü Xankəndidəki qanunsuz rejimin "dövlət naziri" kimi təqdim edən rusiyalı milyarder)* və tərəfdarları yaxın gələcəkdə bölgəni tərk edəcəklər.

Azərbaycanın dekabr ayından atdığı siyasi addımlar, xüsusilə Laçın-Xankəndi yolunda ekoloji aksiyanın fəaliyyəti məntiqi nəticəsini verir".

**Aygün Tahir**

# Fransızlar topçu Vüsalın fotosu ilə Ermənistan üçün yardım kampaniyası aparırlar

**Erməni təbliğatına və maraqlarına xidmət edən 3 fransız kino işçisi film hazırlamaq üçün yardım kampaniyasına start veriblər. Guya Ermənistanın təhlükədə olmasını əsas gətirən "sənət" adamları təcili film hazırlamağın vacibliyini qeyd ediblər.**




Trend-in məlumatına görə, ermənidən daha çox ermənilik edən fransızlar isə yardım kampaniyasına poster kimi azərbaycanlı topçu Vüsalın (Vüsal Şahkərimov) fotosundan istifadə ediblər.

İkinci Qarabağ müharibəsi iştirakçısı olan Vüsal Şahkərimov Azərbaycan cəmiyyətində sözügedən görüntüsü ilə tanınmışdı.

İndi ermənipərəst fransızların Ermənistan üçün yardım kampaniyasına Vüsalın fotosunu seçmələri ya növbəti erməni saxtarkalığı, ya da axmaqlığıdır.

Məsələnin hüquqi məsələsi də var. Bütün beynəlxalq normaları pozmağa alışan ermənilər və onların havadarları indi də azərbaycanlı döyüşçünün fotosunu poster edib, yardım toplayırlar.

Digər tərəfdən isə müəlliflər Azərbaycan-Ermənistan münasibətləri kontekstində guya xristian-müsəlman davasını təbliğ edərək islamafobiyanı tirajlayırlar.



# Münhen görüşü İrəvanın son şansı olacaq

## Cənubi Qafqaz oxundakı proseslərdə Vaşinqtonun önə çıxmaq şansları artır

**Münhendə Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinken və Ermənistan Baş naziri Nikol Paşinyanla birgə görüşü oldu. Bu dəfə də Ermənistan tərəfindən deyilənlər, ”Baş nazir Münhendə olmayacaq”, ”liderlərin görüşü gözlənilmir” kimi xəbərlər öz təsdiqini tapmadı. Konfrans ərəfəsində Ermənistan Baş naziri ilə Azərbaycan Prezidenti arasında bir yox, iki görüş gerçəkləşdi.**

Öncə fevralın 18-də Münhendə Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinkenin təşəbbüsü ilə belə bir görüş reallaşdı. Ardınca panel müzakirələri baş tutdu və iki ölkə lideri növbəti dəfə görüş imkanı əldə etdi. Panel müzakirələri böyük maraqla gözlənilirdi. 44 günlük müharibədən 7 ay öncə - 2020-ci ilin fevralında Münhen Təhlükəsizlik Konfransında İlham Əliyevlə Nikol Paşinyanın ilk debatı təşkil olunmuşdu. Paşinyanın ”kokeyşn büro” söhbəti ilə yadda qalan, İrəvanın fiaskoya uğraması ilə tarixə köçən debat, həm də Azərbaycan və Ermənistan liderlərinin beynəlxalq ictimaiyyət önündə ilk açıq müzakirəsi kimi xatırlanır. Çünki müharibə vəziyyətində olan iki ölkə liderinin mətbuata və ictimaiyyətə açıq şəkildə keçirilən ilk debatıydı. Həmin debatda Paşinyan faktiki Qarabağın Ermənistanın işğalı altında olduğunu etiraf etmişdi. Paşinyanın ”Qarabağ Ermənistandır” şüarı danışıqları və Minsk Qrupunun fəaliyyətini mənasız etmişdi. Məhz rəsmi İrəvanın proseslərə bu cür münasibəti nəticə etibarı ilə yekunda Vətən müharibəsini qaçılmaz etmişdi. Ermənistan hakimiyyəti Münhen Konfransı öncəsi beynəlxalq ictimaiyyəti Azərbaycana qarşı qaldırmağa çalışmış, sülh sazişini guya, Azərbaycanın manipulyasiya etməsi ilə bağlı yalanları ortaya atmışdı. Lakin Azərbaycan Prezidentinin əlində olan ciddi dəlillər Paşinyanı susdurmağa, növbəti dəfə fakt qarşısında qoymağa kifayət etdi. Dövlət başçısı İlham Əliyevin istər Xankəndinin guya, Azərbaycan tərəfindən ”blokadaya” salınması, istər delimitasiya-demarkasiya məsələləri ilə bağlı Bakının mövqeyi, istərsə də Zəngəzur dəhlizi ilə Laçın yolunda nəzarət-keçid məntəqələrinin yaradılması zərurəti ilə bağlı detalları beynəlxalq ictimaiyyətin qarşısında bir-bir ortaya qoydu. Ölkə rəhbəri Ermənistana qarşı tutarlı arqumentlərlə çıxış edərək növbəti dəfə Nikol Paşinyana çətin anlar yaşatdı, onu fakt qarşısında aciz durumda buraxdı.

ABŞ Dövlət katibi Entoni Blinken Münhen Konfransı çərçivəsində baş tutmuş görüşlərlə bağlı açıqlama verib. Bildirib ki, Azərbaycan və Ermənistanın davamlı sülhə nail olmaq üçün tarixi imkanları var: ”Tərəflər arasındakı sülh prosesi, birbaşa danışıqlar Avropa İttifaqının və ABŞ-nin diqqət mərkəzində olub. Amerika Birləşmiş Ştatları istər dostlarımızla, istər bu kimi üçtərəfli formatda, istərsə də digər beynəlxalq tərəfdaşlarla bu səyləri dəstəkləmək üçün əlindən gələni etməyə hazırdır”.

NATO da Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın görüşünə münasibət bildirib. Qurumun baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina deyib ki, təmaslar həqiqətən aktualdır: ”Bu, Cənubi Qafqazda sabitliyin təminatı üçün açardır. NATO Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasını dəstəkləyir”.

**Münhendə baş tutmuş görüşləri ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Aqşin Kərimov deyib ki, Münhen Təhlükəsizlik Konfransı İkinci Dünya müharibəsindən sonrakı nizamın təməl prinsiplərinə qarşı gərgin mübarizənin konturlarını və risk qavrayışlarını, münaqişələrin nizamlanma üsullarını müəyyən edə bilən mühüm platformadır.** Analitikin fikrincə, ABŞ tərəfinin təşəbbüsü ilə reallaşan Azərbaycan-Ermənistan liderlərinin Münhen görüşü Cənubi Qafqaz oxundakı proseslərdə Vaşinqtonun önə çıxmaq şanslarını artırmaq səylərindən xəbər verir.

Çünki Cənubi Qafqaz regionu beynəlxalq nizamın hara doğru döndüyünü təyin edə biləcək strateji xüsusiyyətlərə malikdir: ”Qlobal aktorlar strateji aktivlərini əhəmiyyətli dərəcədə artırmaq üçün Cənubi Qafqaz coğrafiyasını cazibə mərkəzi kimi görürlər. Ona görə də Azərbaycan-Ermənistan münasibətlərindəki qara nöqtələrin üzünü ağ etməyə və ya daha da zədələməyə çalışırlar. Çünki təhlükəsizlik və sülhə dair ziddiyyətli davranışlar, bir-birilə uyuşmayan qavrayışlar prosesləri fərqli məcraya aparır. ABŞ dövlət katibi Entoni Blinkenin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın görüşünün təşkil edilməsi çoxtərəfli aspektləri özündə cəmləşdirir. Ümumiyyətlə, Ağ Evin son zamanlar Cənubi Qafqazda aktivliyi müşahidə olunur. Vaşinqton Azərbaycan-Ermənistan icmaları arasındakı təmasların dərinləşdirilməsi üçün bəlkə də xeyli miqdarda vəsait xərcləyir. Lakin səmərəlilik indeksində hələ ki əhəmiyyətli irəliləyiş əldə edə bilməyib. Çünki Vaşinqton Cənubi Qafqazda Moskva qarşısında zəif bənd kimi görünür. Tərəflərin Münhen raundundan sonrakı proseslərdə Vaşinqton rıçaqlar qazanmaq niyyətlərini gizlətməyəcək. Hərçənd Kremlin buna necə reaksiya verəcəyi də maraqlıdır. ABŞ Azərbaycan, Gürcüstan və Ermənistanın üçtərəfli inteqrasiya əsasında sülh modelinin yaradılmasına çalışır, Moskva isə xalqların təmaslarının genişlənməsindən narahatdır. Blinkenin moderatorluğu ilə keçirilən görüşdən sonra Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin debata qatılması Moskvanın perspektiv baxışlarındakı qəzəbləri artıra bilər. Rusiyanın qəzəb yükü əsasən Ermənistanın üzərinə yönəlir, yəni Münhen Təhlükəsizlik Konfransı belə İrəvanın cəzalanması planını aradan qaldırmır. Lakin Rusiyanın öz aqressiyasını Gürcüstana qarşı da nümayiş etdirə bilər. Ona görə yox ki, Tbilisi Bakı-İrəvan münasibətlərində tənzimləyici elementlərə malikdir. Həm də ona görə ki, Tbilisi ABŞ-nin vasitəçiliyi ilə regionun siyasi paytaxtı rolunda sülh müqaviləsinin imzalandığı məkana çevrilə bilər.

Rusiyanın Münhen Təhlükəsizlik Konfransından sonra atacağı addımlarda Gürcüstanı da hədəfə ala bilər”.

Ekspertin qənaətincə, Azərbaycanla bağlı məsələ bir qədər fərqlidir: ”Rusiyanın imperiya təfəkkürünü əlində bərk saxlamasını nəzərə alsaq, Bakı ilə Moskvanı bir-birindən ayıran əsas xətt Qarabağdakı mübahisəli məsələlərin tənzimlənməsidir.

Moskvanın cari kartı Ruben Vardanyandır, lakin bu da son deyil. Maraqlı cəhət burasındadır ki, Vardanyana Qərb də ”gözün üstündə qaşın var” demir. Çünki Vardanyan Rusiya-Qərb əlaqələrindəki qeyri-leqal maliyyə qanadında özünə yaxşıca yer edib. Dövlət başçısı İlham Əliyev Paşinyanla debatda Vardanyanın Rusiyadan ixrac edildiyini söyləməklə topu Qərbə atdı və göstərdi ki, Qərb sülh istəyirsə, Rusiyanın ”milyarder layihəsinin” qarşısını alsın. Sonrakı mərhələdə Qarabağdakı erməni əhalinin təhlükəsizlik məsələsində arxayın olaraq Azərbaycana etibar etsin. Ümumiyyətlə, Qarabağdakı erməni icması ilə təmaslar yalnız Azərbaycanın yurisdiksiyası çərçivəsində baş tutmalıdır və Moskva ilə Qərb buna müdaxilədən çəkinməlidir. Hesab edirəm ki, Azərbaycanla Türkiyə ortaq strateji partnyoru Gürcüstanı mühafizə etməkdən ötrü Moskva ilə təmasları gücləndirəcək. Münhen Təhlükəsizlik Konfransının mümkün proqnozlaşdırıla bilinən nəticələri üçün Kremllə dialoqlar davam etdiriləcək. ABŞ ilə münasibətlərdəki bəzi təzahürlərin aşkara çıxmaması üçün Azərbaycan Avropa İttifaqı üzərindən təmaslara üstünlük verəcək. Azərbaycan Ermənistanın sülh modeli üçün Bakıya təqdim etdiyi yeni təklifləri incələsə də, İrəvanın mövqeyinin onu qane etməyəcəyini bilir. Çünki İrəvan sərhədlərin delimitasiyası məsələsində, Zəngəzur dəhlizinin açılması mövzusunda paradoksallıq nümayiş etdirir ki, vaxt qazansın. Bu amil Azərbaycan-Ermənistan sərhədindəki eskalasiya riskinin yenidən zühur etməsinə şərait yaradır. Ona görə də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən görüş və məlum debat bəlkə də İrəvan üçün son şanslardan biri olacaq”.

**İsmayıl Qocayev**

# İmkan yaradılmalıdır

## Azərbaycanlı tələbələrə quru sərhəddən istifadəyə icazə verilməlidir



**”Türkiyədə təhsil alan azərbaycanlı tələbələrə quru sərhəddən istifadə imkanının yaradılması təklif olunur”. Bunu millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra qardaş ölkədə ali məktəblərdə təhsil onlayn, distant formaya keçdi:**

”Türkiyədə 30 minə yaxın Azərbaycan vətəndaşının təhsil aldığını nəzərə alsaq, həmin gənclərin ölkəmizə qayıdışına dəstək olunması vacibdir. Təyyarə biletlərinin baha olduğunu nəzərə alsaq, tələbələrin çoxunun quru sərhədləri vasitəsilə vətəninə qayıtmağa üstünlük vermək istəyi anlaşılandır. Bu aydan etibarən Türkiyə ilə Naxçıvan arasında quru sərhədlərimiz açılsa da, bu imkandan Muxtar Respublikada qeydiyyatda olan vətəndaşlarımız istifadə etmək hüququna malikdir. Bu baxımdan, qeydiyyat yerindən asılı olmayaraq Türkiyədə təhsil alan Azərbaycan vətəndaşlarına belə imkanın yaradılması məqsədəuyğun olardı. İndiki halda tələbə biletini təqdim etməklə azərbaycanlı tələbələrin quru sərhəddən istifadəyə icazə verilməsi onların vətənə asan və daha az xərclə qayıtmasına imkan yaradardı. Bütövlükdə, mərhələli şəkildə qardaş Türkiyə ilə quru sərhədlərimizdən bütün vətəndaşlarımızın istifadə imkanının yaradılması məqsədəuyğun olardı”.

**İsmayıl**

# Regionlarda ətin qiyməti bahalaşdı

## Əsas səbəb bazara məhsul çıxaranların xərclərinin artmasıdır



“Təsəvvür edin, ətin qiymətinə 2 manat əlavə ediləndə, bu, 200 kiloqramda 400 manat gəlir əldə etməkdir”

**Paytaxtda ətin bahalaşması regionlardakı qiymət artımı ilə əlaqələndirilir. Yayılan xəbərlərə görə, bölgələrdə dana və quzu ətinin qiyməti bahalaşıb. İsmayıllıda və Şamaxıda ət satışı ilə məşğul olan satıcılar ”Trend”ə bildiriblər ki, ətin qiymətində 2 manat artım müşahidə edilir. Onların sözlərinə görə, bir həftədir ki, bazarda quzu ətinin qiyməti 14 manatdan 15 manata, mal ətinin qiyməti isə 11 manatdan 13 manata qalxıb.**

”Budəfəki qiymət artımı mövsümü deyil. Əsas səbəb diri çəkidə alınan mal-qaranın baha olmasıdır”, - deyə satıcılar qeyd edib. Bənzər mənzərə Ağsu və Göyçayda da müşahidə olunur. Satıcılar ətin bahalaşmasını ot və yemlə əlaqələndirsələr də, bəziləri hazırda ətlik mal-qaranın azlığını səbəb göstərir. Satıcıların sözlərinə görə, qiymət artımı tələbatın azalmasına səbəb olub.

Məsələ ilə bağlı ”Şərq” Bərdə fermerləri ilə əlaqə saxlayıb. Bərdədən müxbirimizə bildirilib ki, dana ətinin kiloqramı hazırda 12 manata, quzu əti isə 14 manata satılır. Görünən budur ki, ətin qiymətində 1 manat artım var. Təbii ki, bu artım Bakıya gəlib çıxanadək 2 manata çatır. 1 manat da paytaxta satıcıları qiymətə əlavə edir. Səbəb isə heç də deyildiyi kimi, diri heyvan və ya yem qıtlığı ilə bağlı deyil. Əsas səbəb ümumi qiymət bahalaşmasıdır, hansı ki bütün ərzaq məhsullarında əks olunur. Məsələn, heyvana verilən arpanın qiymətində də artım var. Kiloqramı 30-40 qəpiyə satılan arpa hazırda 70 qəpikdir.

**Qiymət bahalaşmasıyla bağlı ”Şərq”ə danışan iqtisadçı Fuad İbrahimov qeyd etdi ki, hazırda dünya bazarında ərzaq məhsullarının qiymətində ucuzlaşma gedir, bizdə isə əksinə, bahalaşma:**

- Əsas səbəb diri heyvan qıtlığı, yem qıtlığı, dərman, filan... deyil. Əsas səbəb bazara məhsul çıxaranların xərclərinin artmasıdır. Necə ki siz, mən, bir başqası xərclərinin artdığını əyani şəkildə görür, məsələn, dünənədək nəqliyyat xərclərinə gündəlik 60 qəpik sərf edilirdisə, indi 80 qəpikdir. Eləcə də ərzaq məhsullarında bu görünür. Kiloqramı 12 manat olan kərə yağı (bu hələ mübahisəlidir ki, əsl kərə yağıdır, yoxsa tərkibində qatqı olan yağdır M.R.) bu gün 14-15 manata təklif edilirsə, digər ərzaq məhsullarında da eyni qayda ilə 30 qəpikdən başlamış 40-50 qəpiyədək artım varsa, bu xərclər üst-üstə toplandıqda ötən ayın xərclərini üstələyir. Bunu regionlardakı, bölgələrdəki fermerlər də gündəlik xərclərində hiss edir. Onlar da sövdələşməyə gedərək bazara çıxardıqları ətin qiymətində artım edirlər. Fermer də elektrik enerjisinə görə ödəniş edir, su xərci, daşınma xərci və sair, bu xərcləri də məhsulun üzərinə əlavə edirlər. Qiymət artımı belə yaranır.

**F.İbrahimov bildirdi ki, sağlam rəqabətə şərait yaradılsa, bazara daha çox məhsul çıxarılar, məhsul bolluğu da qiymət ucuzlaşmasına səbəb olar:**

- Əslində bazarda defisit olmamalıdır. Amma süni qıtlıq yaratmaqla qiymət artımına əsas göstərmək istəyirlər. Yem qıtlığı da yoxdur. Qış mövsümünün bitmək üzrə olması yem qıtlığına səbəb ola bilər. Lakin fermerlər əvvəlcədən tədarük görürlər. Hamı bilir ki, qışın sonlarına doğru yem qıtlığı yarana bilər. Mövsümündə 5-6 manata aldığı quru otun bir bağlamasını qışın sonlarında 7 manata alacaq. Ona görə də tədarük görürlər. Kiminsə yem ehtiyatı tükənibsə, məcbur olacaq arpanı da, quru otu da yüksək qiymətə əldə etsin. Bu da əlbəttə, ətin qiymətinə də təsir edəcək. Fermer yüksək qiymətə yem alırsa, bunu ətin qiyməti ilə əvəz etmək məcburiyyətindədir. Təsəvvür edin, ətin qiymətinə 2 manat əlavə ediləndə, bu, 200 kiloqramda 400 manat gəlir əldə etməkdir. Amma əhali üçün bu artım çox böyükdür. Biz 2011-ci ildən bazarlarda monitorinq aparırıq. 2011-ci il məxsus qəbzləri ortaya qoysam, partlayış olar. Deyirlər, əməkhaqları da artıb. Əməkhaqqının 20 faiz artımı müqabilində ərzaq məhsullarında da 20 faiz artım baş veribsə, sadə vətəndaşın buna pul çatdırması mümkün deyil.

**Məlahət Rzayeva**

# Ankaranın yardıma ehtiyacı var

## Blinkenin Türkiyəyə səfəri böyük əhəmiyyət daşıyır



**”ABŞ-nin dövlət katibi Entoni Blinkenin Türkiyə səfəri mövcud situasiyada rəsmi Ankara üçün siyasi-diplomatik cəhətdən böyük əhəmiyyət daşıyır”.**

**Bunu ”Şərq”ə siyasi ekspert Elçin Xalidbəyli deyib. O, diqqətə çatdırıb ki, hazırda dağıdıcı zəlzələdən sonra Türkiyənin yardıma və dəstəyə ehtiyacı var:**

”Ağ Ev təmsilçisi Ankaraya səfəri zamanı ABŞ-nin daha 100 milyon dollar həcmində yardım ayırdığını bəyan edib. Ağ Evin bu davranışı digər ölkələr və beynəlxalq maliyyə qurumları üçün də müəyyən mənada, yardım məsələsində stimulverici örnək rolunu oynaya bilər. Digər tərəfdən, ABŞ və Türkiyə arasında müəyyən problemlər də mövcuddur. Böyük ehtimalla, dövlət katibi Entoni Blinken bu məsələlər ilə bağlı Prezident Rəcəb Tayyib Ərdoğanla anlaşmağa çalışacaq. Ağ Evin əsas gözləntiləri Türkiyənin İsveç və Finlandiyaya NATO üzvü olmaq şansı tanıması ilə bağlıdır. Bir neçə gün öncə Ankaraya səfər etmiş NATO baş katibi Yens Stoltenberq bu məsələ ilə əlaqədar Türkiyə rəsmi dairələri ilə anlaşa bilməmişdi.

Ona görə də ABŞ dövlət katibinin bu mövzuda daha cəlbedici təkliflər irəli sürə biləcəyi qətiyyən istisna deyil. Çünki rəsmi Ankara ABŞ-dən F-16 döyüş təyyarələri satın almağa çalışır. Yəqin ki, bu iki məsələ danışıqlar masasında paralel olaraq müzakirə ediləcək. Eyni zamanda ABŞ Türkiyənin Rusiyadan məsafə saxlamasını da istəyir. Xarici işlər naziri Mövlud Çavuşoğlunun Rusiyaya Türkiyə üzərindən sanksiyalardan yayınmaq imkanı verilmədiyini bəyan etməsi bu məsələ ətrafında müəyyən uzlaşmanın olduğunu büruzə verir.

Rəsmi Ankara ABŞ-dən PKK/PYD-yə dəstəyini dayandırmasını da tələb edir. Bu baxımdan, müzakirə masasında kifayət qədər ciddi mövzular mövcuddur. Ona görə də ABŞ dövlət katibi Entoni Blinkenin rəsmi Ankara ilə strateji əhəmiyyət daşıyan bəzi məsələlərlə bağlı ”siyasi bazarlıq” içərisində ola biləcəyi qətiyyən şübhə doğurmur. Ancaq bunun nəticələri yəqin ki, dərhal deyil, bir müddət sonra aydın olmağa başlaya bilər”.

Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ dövlət katibi Entoni Blinkenlə görüşüb. Görüş Ankarada Esenboğa Hava Limanının Böyük Şöhrət Zalında baş tutub.

**Sücayət Mehti**

## “Heydər Əliyev xatirələrdə...”



# "Heydər Əliyevlə dəfələrlə telefonla danışmışam"

### Cəlil Xəlilov: “Bir dəfə mənə zəng edərək əslən Lənkərandan olan, vaxtı ilə bu şəhərdə yüksək vəzifələr tutan, xalq arasında böyük nüfuza sahib olan bəzi adamlardan söhbət açdı”

**Ulu Öndər Heydər Əliyevin dövlətimizin inkişafında misilsiz xidmətləri var. Ümummilli Lider istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərliyi müddətində əsrlərə sığmayan işlər görüb. Heydər Əliyevin millətimiz və dövlətimiz qarşısındakı xidmətlərinə dair yüzlərlə irihəcmli əsərlər yazılıb, bu gün də yazılır və gələcəkdə də yazılacaq. Sovet sistemi şəraitində Heydər Əliyev respublikamızı müttəfiq respublikalar arasında önə çıxartdı, xalqımızın başını uca etdi.**

Qısa vaxt ərzində onun təşəbbüsü ilə mühüm sənaye müəssisələri Azərbaycanın şəhərlərində inşa edildi, təsərrüfat, elm və təhsil sahələrində qətiyyətli islahatlar həyata keçirildi. Məhz həmin dövrdə Azərbaycanın gələcək dövlət müstəqilliyi üçün lazım olan obyektiv amillər formalaşdırıldı. Azərbaycan ərazisində ilk dəfə olaraq Heydər Əliyevin liderliyi altında Naxçıvan MSSR-in adından ”sovet, sosialist” ifadələri çıxarıldı. Cümhuriyyətimizin üçrəngli, aypara və səkkiz guşəli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq rəsmən qəbul edildi. Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin ikinci hakimiyyət dövrü isə müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edir. Sovetlər birliyi süqut edəndə 15 ittifaq dövləti sırasında Azərbaycan yeganə ölkə oldu ki, ərazisinin 20 faizi işğal edildi, 20 mindən çox şəhid verdik, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Sovet rejiminin qəddarlığı sayəsində Azərbaycanda baş verən 20 Yanvar qırğınlarından sonra Heydər Əliyev doğulduğu Naxçıvana qayıtdı və burada xalqın iradəsi ilə Ali Məclisə rəhbərlik etməyə başladı. Məhz onun qətiyyəti və fədakarlığı sayəsində bu diyarda ölüm-itki olmadı, insanlar müdrik rəhbərin ətrafında sıx birləşərək onun timsalında xilas yolunu tapdılar. 1993-cü ildə Azərbaycan dövləti dağılmaq, ölkə parçalanmaq və millətimiz vətəndaş müharibəsi astanasında olan bir zamanda Heydər Əliyev Vətəni parçalanmaqdan, dövləti dağılmaqdan və minilliklər boyu tək olmuş millətimizi vətəndaş müharibəsindən xilas etdi, Azərbaycanın inkişaf yolunu müəyyənləşdirdi. İlk gündən müdrik rəhbər xalqa arxalandı, xalq da ona dəstək verdi və onun ətrafında həmrəylik nümayiş etdirdi. Heydər Əliyev Azərbaycan gəncliyinə müraciət etdi, Vətənimizin təhlükədə olduğunu izah edərək millətin, dövlətin gənclərə də güvəndiyini bildirdi. Bu çağırışdan ruhlanan yüzlərlə, minlərlə gəncimiz silaha sarılıb müharibəyə yola düşdü. Artıq hər kəs bilirdi ki, dövlətin rəhbərliyi etibarlı əllərdədir və ordu müdrik sərkərdənin komandanlığı ilə idarə olunur. Həmin illərdə hərbi məhkəmə sistemində çalışan təcrübəli hakimlərdən biri deyirdi ki, Heydər Əliyevin ordu quruculuğunda qısa zamanda həyata keçirdiyi islahatlar kütləvi cinayət hallarının, xüsusən də fərarilik kimi qatı cinayətin qarşısını aldı. Məhz dövlət başçısının təşəbbüsü ilə Milli Məclis bir neçə dəfə Amnistiya aktı qəbul etdi və minlərlə gənc həbsxanadan azadlığa qovuşdu. Sonradan onların bir çoxu öz günahlarını qanları ilə yudu, Vətənimizin düşməndən qorunması uğrunda döyüşlərdə iştirak etdi. Bax, budur, xalqa rəhbərlik nümunəsi, humanizm dəyərlərinə sədaqət, bağışlamaq və etibar etmək təcrübəsi. O baxımdan Ulu Öndərin müstəqillik dövründə həyata keçirdiyi çox mühüm islahatlar sırasında ordu quruculuğunda görülən işləri də qeyd etmək vacibdir. 1994-cü ilin qışında Azərbaycan Ordusunun cəbhədəki ilk uğurlu əməliyyatının müəllifi də məhz Ulu Öndərdir. Ulu Öndər Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunması və hərtərəfli inkişafı naminə göstərdiyi misilsiz xidmətləri ilə hələ sağlığında xalqımızın qəlbində öz əbədi heykəlini ucaltdı. Güclü siyasi iradəsi, qətiyyəti və uzaqgörənliyi, yüksək intellekti, əzmkarlığı və fədakarlığı, zəngin idarəçilik təcrübəsi ilə Vətən qarşısında xilaskarlıq missiyasını uğurla yerinə yetirən Heydər Əliyevin adı Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Dövlət və sənət xadimləri, şair və yazıçılar, elm adamları, ziyalılar, hərbçilər, bütün sahənin nümayəndələri Ulu Öndərlə bağlı xatirələrində görkəmli şəxsiyyətin müasiri olmaqdan qürurlandıqlarını bildirirlər. Ümummilli Lider Heydər Əliyev öz xarakteri, müdrikliyi, xarizması sayəsində onunla ünsiyyətdə olmaq şərəfinə layiq olmuş hər bir insanın yaddaşında silinməz izlər buraxıb.

**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov da Ulu Öndərlə bağlı xatirələrindən danışıb. Polkovnik bildirib ki, Ümummilli Lider Heydər Əliyevlə bağlı xatirələri çoxdur:** ”Hər şeydən öncə qeyd edim ki, mənim və mənim kimi yüzlərlə azərbaycanlının ali hərbi məktəbə qəbulu Heydər Əliyevin adı ilə bağlıdır. Bildiyiniz kimi, sovet dönəmində Heydər Əliyevə qədər azərbaycanlıların ali hərbi məktəblərdə təhsil almasına müxtəlif bəhanələrlə əngəllər törədilirdi. Gah azərbaycanlıların rus dilini yaxşı bilməməsi bəhanə edilir, gah da digər iddialarla azərbaycanlıları hərb peşəsinə yaxın buraxmaq istəmirdilər. Heydər Əliyev bütün bu maneələri aradan qaldırdı. O, sovet rəhbərliyinə müraciət edərək azərbaycanlıların ali hərbi məktəblərə müsabiqəsiz daxil olması məsələsini qaldırdı. O cümlədən Azərbaycanda hərbi məktəbin açılmasına nail oldu. Məhz Heydər Əliyevin səyi nəticəsində mən və xeyli sayda soydaşımız SSRİ dönəmində ali hərbi məktəblərdə təhsil alaraq peşəkar hərbi kadrlar kimi formalaşdıq. Hansı ki, bu kadrlar sonrakı dönəmdə - Azərbaycanın müstəqilliyi illərində milli ordumuzun formalaşmasında mühüm rol oynadı. 1993-cü ildə Lənkəranda sərhəd dəstəsinin qərargah rəisi olan zaman Heydər Əliyevlə dəfələrlə telefon əlaqəsi saxlamışam. Həmin vaxt mən Lənkəranda sərhəd dəstəsinin qərargah rəisi idim və faktiki olaraq sərhəd dəstəsinin rəisi vəzifəsini icra edirdim. O vaxt sərhəd dəstəsi cənubdakı separatçı qüvvələrə qarşı yeganə əsas müqavimət mərkəzi idi. Mən Heydər Əliyevin göstərişi ilə mütəmadi surətdə onu bölgədəki vəziyyətlə bağlı məlumatlandırır, öz fəaliyyətimi onun tövsiyələri və göstərişləri əsasında qururdum. Bir dəfə Heydər Əliyev mənə zəng edərək əslən Lənkərandan olan, vaxtı ilə bu şəhərdə yüksək vəzifələr tutan, xalq arasında böyük nüfuza sahib olan bəzi adamlardan söhbət açdı. Məndən soruşdu ki, bu adamları tapıb mənimlə əlaqələndirmək üçün sənə nə qədər vaxt lazımdır? Dedim ki, cəmi bir saat içində bu şəxsləri sizinlə əlaqələndirə bilərəm. Və bir saatdan sonra Heydər Əliyev bu şəxslərə telefon vasitəsilə təlimatlar verir. Onları xalq arasında təbliğat işini genişləndirməyi, separatizmə qarşı mübarizədə xalqı səfərbər etməyi tövsiyə edirdi. Həmin vaxt separatizmə qarşı mübarizədə böyük fəallıq göstərən Dilrubə Camalovanın təhlükəsizliyinin təmin edilməsi, onun qorunması da diqqət mərkəzində saxlanılırdı. Heydər Əliyev yaxşı başa düşürdü ki, Azərbaycan xalqı hec vaxt separatizmə dəstək verməyib. Əksinə, bu cür hallara qarşı mübarizə aparıb. Sadəcə, həmin vaxt baş verən hadisələrin mahiyyətini anlamayan bəzi gənclər müxtəlif vədlərə inanaraq separatçı fəalların ətrafında cəmləşmişdi ki, onların böyük əksəriyyəti əsl həqiqəti anladıqdan sonra separatçılardan ayrılaraq dövlətin mərhəmətinə sığındı. Onlar Heydər Əliyevə inanaraq separatist əməllərdən imtina etdilər. Ümumiyyətlə, xalq Heydər Əliyevə bütün qəlbi ilə inanırdı və Ulu Öndər hər zaman xalqın bu inamını doğrultdu”.

Cəlil Xəlilov qeyd edib ki, Heydər Əliyev bölgədəki vəziyyəti daim diqqət mərkəzində saxlayır, tövsiyə və göstərişlər verməklə yanaşı, təkliflərlə də maraqlanırdı: ”Bir dəfə o, ölkəmizin cənubunda yaranan gərgin vəziyyət haqqındakı söhbət əsnasında məndən soruşdu ki, mövcud situasiyanın içində olan, vəziyyətə hərtərəfli bələd olan insan kimi nə təklif edə bilərsən? Mən bildirdim ki, cənab Prezident, biz separatçıların ətrafında birləşən gənclərlə, xüsusilə də onların valideynləri, doğmaları ilə təbliğat işini genişləndirməliyik. Əgər biz bu işi yüksək səviyyədə qura bilsək, o zaman gənclər səhv yolda olduqlarını anlayıb bu yoldan dönərlər. Bu təklif Heydər Əliyevin çox xoşuna gəldi. Məhz onun göstərişi ilə biz, habelə Bakıdan Lənkərana ezam edilən nümayəndə heyəti həmin gənclərin doğmaları ilə geniş maarifləndirmə işi apardıq. Nəticədə, bir neçə gündən sonra həmin gənclərin böyük hissəsi silahı yerə qoyaraq doğmalarının yanına qayıtdı. Separatçı fəallar qısa zamanda neytrallaşdırıldı. Separatçıların nəzarətindəki silah-sursat, hərbi texnika müvafiq dövlət orqanlarına qaytarıldı. Ulu Öndər qardaş qırğınının qarşısını almaq üçün hər şey etdi və xalqı qırğından xilas etdi. Mən fəxr edirəm ki, tale mənə Ulu Öndərlə ünsiyyətdə olmaq, onun tövsiyələrindən faydalanmaq, Ümummilli Liderin tapşırıq və göstərişlərini icra etmək səadəti bəxş edib. Nə qədər ki, Azərbaycan xalqı var, Heydər Əliyev də xalqımızla birlikdə əbədi yaşayacaq, hər zaman sevgi ilə yad ediləcək”.



“Məndən soruşdu ki, bu adamları tapıb mənimlə əlaqələndirmək üçün sənə nə qədər vaxt lazımdır? Dedim ki, cəmi bir saat içində bu şəxsləri sizinlə əlaqələndirə bilərəm”

**İsmayıl**

# Heç kim ev almayacaq

### Zəlzələ bölgəsində çoxmərtəbəli binaların tikintisinə qadağa qoyulmalıdır



“Sahibkar ya xərclərini gözə alıb izolyasiyalı binalar tikməlidir, ya da mərtəbələrin sayını azaltmalıdır”

**Türkiyənin zəlzələ bölgəsində bərpa və yenidənqurma işlərinə gələn ay başlanılacaq. Bir həftə ərzində isə zəlzələnin təsirinə məruz qalmış 10 vilayətdə zərərin qiymətləndirilməsi işləri tamamlanacaq.**

*”Şərq” Türkiyə mediasına istinadən xəbər verir ki, Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum binaların inşasına mart ayında başlamağı planlaşdırdıqlarını qeyd edib:* ”Binalar 3-4 mərtəbədən çox olmayacaq”.

Daşınmaz əmlak eksperti Elnur Fərzəliyev isə hesab edir ki, Türkiyədə zəlzələ baş vermiş ərazilərdə yenidənqurma və tikinti işlərinin aparılması gələcək nəsilləri yeni bir fəlakətlə üz-üzə qoya bilər. Onun sözlərinə görə, ərazilərin dağıntılardan təmizlənməsi, yeni yolların çəkilməsi, infrastrukturların qurulması uzunmüddətli prosesdir. Bu müddət isə Türkiyə hökumətinin həmin ərazilərin yenidən qurulması ilə bağlı xalqa verdiyi 1 illik vədlə üst-üstə düşmür: ”Ölkəmizdə köhnə binaların sökülərək yeni binalarla əvəzlənmə prosesinə nəzər salsaq, təcrübədə bu proses təqribi 2,5 - 3 il müddətə başa gəlir. Binanın sökülməsi, ərazinin təmizlənməsi, tikintidə bünövrənin qazılması, betonlanması və betonun quruması, əlavə olaraq hər mərtəbədə verilən betonun quruması, ara divarların hörülməsi, suvanması və mənzillərin daxili təmiri bəlli bir zamana başa gəlir. Təbii ki, bu proses zamanından tez, yəni beton hissələr qurumadan baş verərsə, o zaman tikinti bitdikdən sonra çökmələrin olması qaçılmazdır. Başqa bir tərəfdən isə sosial şəbəkələrdə zəlzələdən əvvəl də həmin ərazilərdə yaşayan sakinlərin paylaşımlarından açıq şəkildə bəlli olur ki, o ərazilərdə mütəmadi olaraq zamanla kiçik ballıq zəlzələlər baş verirmiş. Yəni həmin ərazilər seysmik zona olaraq zəlzələyə meyillidir. Düşünürəm ki, sözügedən bölgədə yenidənqurma işlərinin aparılması qadağan olunmalı və o yaşayış massivləri zəlzələyə meyilli olmayan digər ərazilərdə tikilməlidir. Bu həm tikinti işlərinin sürətləndirilməsinə gətirib çıxarar, həm də gələcəkdə həmin ərazilərdə yenidən zəlzələ baş verərsə, dövlət, o cümlədən də vətəndaşlar tələfat və dağıntılardan qorunmuş olar”.

**Memar Cahid Həsənov ”Şərq”ə açıqlamasında deyib ki, hansısa bir ərazinin seysmik zona olması orada yaşayış məntəqəsi salınması, binalar tikilməsi üçün əks göstəriş deyil:** ”Əsas məsələ zəlzələ təhlükəli zonalarda yaradılacaq bina və qurğuların seysmik dağılma riskini azaltmaqdadır. Birmənalı olaraq seysmik aktiv bölgələrdə yenidənqurma işlərinə qadağa qoymaq, həmin əraziləri torpaq sahəsi kimi saxlamaq, plantasiyaya çevirmək düzgün deyil. Zəlzələnin gücünə və müddətinə rəğmən hələ də Kahramanmaraşda, Hatayda və digər bölgələrdə dağılmayan, hətta bir şüşəsi belə sınmayan binalar var. Deməli, tikinti zamanı binanın konstruksiyasının dayanıqlılığına nəzarət mexanizmi düzgün qurulduqda dağıntı riski minimuma enir. Əgər həmin ərazilərdə güclü təkanlar hələ də davam edirsə, orada çoxmərtəbəli binaların tikintisinə qadağa qoyulmalıdır. Seysmik aktiv torpaqlarda 14-19 mərtəbəli binalar tikmək risklidir. Ya bu binalarda güclü zəlzələyə davamlılıq üçün lazım olan bütün parametrlər ödənilməlidir, ya da 3-4 mərtəbəli binalar, birmərtəbəli həyət evləri, ticarət mərkəzləri, orta məktəb, uşaq bağçaları tikə bilərlər. Zəlzələyə davamlı çoxmərtəbəli binaların tikintisi baha başa gəldiyi üçün bu, sahibkarların büdcəsinə uyğun gəlmir. Hansısa sahibkarı mütləq şəkildə 10 ballıq zəlzələyə davamlı bina tikməyə məcbur etmək doğru deyil. Sadəcə, burada əhalinin alıcılıq qabiliyyəti əsas götürülür. Sahibkar ya xərclərini gözə alıb izolyasiyalı binalar tikməlidir, ya da mərtəbələrin sayını azaltmalıdır. Çünki 4-5 bal gücündə zəlzələyə hesablanan çoxmərtəbəli binalardan heç kim ev almayacaq”.

**Şəymən**



# Laçın yolundakı aksiya sonuna qədər davam edəcək

### “Rəsmi Bakı Ermənistanı sülh müqaviləsinə yönləndirir”

**”Laçın-Xankəndi yolundakı vəziyyət də əlbəttə ki, müzakirə edildi. Mən bir daha Azərbaycanın mövqeyini bildirdim ki, hər hansı bir blokadadan söhbət gedə bilməz”.**

Bunu Prezident İlham Əliyev fevralın 18-də Münhendə televiziya kanallarına müsahibəsində deyib.

”Dekabrın 12-dən bu günə qədər 2500-dən çox yük maşını və Qırmızı Xaç Komitəsinin avtomobilləri keçib və əgər blokada var idisə, bu maşınlar necə keçə bilərdi?

Yəni bu, Azərbaycana qarşı əsassız bir ittihamdır, biz bunu rədd edirik və deyə bilərəm ki, keçirdiyim bütün görüşlərdə bu mövqe anlayışla qarşılanır”, - deyə Azərbaycan Prezidenti bildirib.



**Məsələnin mahiyyətinin sadə olduğunu deyən siyasi şərhçi Orxan Amaşov ”Şərq”ə bildirib ki, Azərbaycan dövləti istədiklərinə nail olanadək, Laçın yolundakı aksiyanın davam etməsində maraqlı olacaq:** ”Biz Nikol Paşinyanın çıxışlarına diqqət yetirərək, onun hazırkı sülh danışıqlarından heç bir nəzərəçarpacaq söz demədiyinin şahidi oluruq. Ermənistan baş naziri əsasən ikinci dərəcəli məsələlərə diqqət yetirərək, Xankəndi-Laçın yolundakı aksiyanın humanitar böhrana səbəb olduğunu iddia edib. Azərbaycan Prezidenti isə açıq şəkildə bildirdi ki, bu məsələlərlə bağlı müzakirələr olub və rəsmi Bakının mövqeyi həm rəsmi Vaşinqton, həm də Aİ tərəfindən anlaşılır. Yəni artıq bütün beynəlxalq güclər anlayır ki, orada blokada və humanitar böhran yoxdur. Sözügedən yolda sadəcə hərəkətin məhdudlaşdırılması hadisəsi var. Bu məhdudlaşdırma isə 10 Noyabr Bəyannaməsinin müddəalarını pozmur”.

Analitikin sözlərinə görə, aksiyaya qədər Xankəndi-Laçın yolundan minaların və silahların daşınmasında istifadə edilirdi: ”Bu məlumatlar Azərbaycan tərəfindən həm Brüsselə, həm də rus sülhməramlılarına çatdırılıb. Hətta Ermənistan tərəfi dəfələrlə qeyd edib ki, əgər aksiya dayanmasa və yolun öncəki hərəkət rejimi bərpa edilməsə, danışıqlar olmayacaq, lakin danışıqlar baş tutdu. Ümumiyyətlə, Laçın yolundakı aksiyanın sonuna qədər davam edəcəyini düşünürəm. Çünki qanunsuzluqlara son qoyulmalıdır. Eləcə də bu yolda Azərbaycanın keçid məntəqəsi olmalıdır. Bu prosesin getməsi onu göstərir ki, rəsmi Bakı Ermənistanı təzyiqlə sülh müqaviləsinə doğru yönləndirir. Düzdür, prosesin indiki sürəti qaneedici deyil. Rəsmi İrəvan sülh müqaviləsini mümkün qədər ləngitməyi düşünür. Ona görə ki, erməni tərəfi bu zaman kəsiyində regionda Azərbaycanın mövqeyini zəiflədəcək müəyyən dəyişikliklərin olacağına ümid edir”.

**Nihat Müzəffər**

# Bölgənin taleyi həll olunur

## Gürcüstan özünü yalnız danışıq otağı, moderator kimi görə bilməz



**Münhendə keçirilən konfransın təşkilatçıları və moderatorları Cənubi Qafqaz ölkələrinin - Azərbaycan, Gürcüstan və Ermənistan liderlərinin iştirakı ilə müzakirə paneli təşkil ediblər. Qərbin aparıcı dövlətləri bununla açıq şəkildə ortaya qoyublar ki, region ölkələrini vahid formatda görmək məqsədəuyğun olardı. Qeyd etmək vacibdir ki, həm Bakı, həm də Tbilisi bu ideyanı dəstəkləyir. Lakin hər zaman olduğu kimi İrəvan üçlü formatdan yayınır.**

Çünki bu formata tam qoşulacağı təqdirdə Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiq etməlidir. Həmçinin ölkəmizdəki erməni milli azlığının işlərinə qarışmaq cəhdlərindən əl çəkməlidir. Fakt odur ki, Ermənistan Azərbaycandan fərqli olaraq, Gürcüstan ermənilərinin hüquqları ilə bağlı Tbilisiyə qarşı heç bir rəsmi tələb irəli sürmür. Xatırladaq ki, yanvarda Davos İqtisadi Forumu çərçivəsində Azərbaycan və Gürcüstan liderləri Cənubi Qafqazda üçtərəfli dialoq formatı yaratmaq istəklərini təsdiqləyiblər. Lakin İrəvan bundan yayınıb. Gürcüstanın Baş naziri İrakli Qaribaşvili tviter səhifəsində yazıb ki, Azərbaycan və Ermənistan liderləri ilə birlikdə regiondakı təhlükəsizlik mühitini müzakirə ediblər. Tərəflər Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsi üçün lazım olan səylərdən danışıb. Baş nazirin sözlərinə görə, Gürcüstan regionda sülhün qorunmasında öz həlledici rolunu oynamağa hazırdır: "Azərbaycan və Ermənistan liderləri ilə birlikdə biz regionumuzdakı təhlükəsizlik mühitini və Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsi üçün lazım olan səyləri müzakirə etdik. Gürcüstan regionda sülhün qorunmasında həlledici rolunu oynamağa hazırdır".

Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaar da deyib ki, Ermənistanla Azərbaycan arasında münasibətlərin nizamlanmasına dair görüşlər Tbilisidə keçirilməlidir. Onun sözlərinə görə, Gürcüstan coğrafi baxımdan bunun üçün çox əlverişli yerdir. Aİ-nin xüsusi nümayəndəsi bildirib ki, Gürcüstanın Ermənistanla Azərbaycan arasında körpü olması vacibdir. Məlumat üçün bildirək ki, Gürcüstan Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasında dəfələrlə vasitəçi kimi çıxış edib. Tbilisinin vasitəçiliyi ilə 2021-ci ilin iyununda Azərbaycan Ermənistana 15 hərbi qulluqçu, İrəvan isə minalanmış ərazilərin xəritələrini Bakıya göndərib. Vasitəçiliyin digər nümunəsi Ermənistan və Azərbaycanın xarici işlər nazirləri Ararat Mirzoyan və Ceyhun Bayramov arasında 2022-ci il iyulun 16-da Tbilisidə baş tutan görüşdür.

**Siyasi şərhçi Zaur İbrahimli deyib ki, gürcü ekspertlərin əksəriyyətinin fikrincə, Tbilisi neytral vasitəçi missiyası icra etməlidir. Onlar hesab edirlər ki, gürcülərin neytral mövqe tutması bir zərurətdir və hər iki tərəfdə etimad yaratmaq üçün vacibdir:** "Əslində rəsmi Tbilisinin də mövqeyi belədir və gürcü hakim siyasi dairələri hər hansı məsuliyyət götürməkdən yayınmağa çalışırlar. Fikrimcə, Gürcüstan özünü yalnız danışıq otağı, moderator kimi görə bilməz. İstəməsə belə gürcülər tərəfdirlər. Çünki bölgədə istənilən dəyişiklik onlara ciddi təsir edir. "Müharibə və ya sülh" seçimi gürcülərin də seçimindən asılıdır. Əgər davamlı sülh olmayacaqsa, əsas tranzit ölkə, turizm məkanı kimi Gürcüstanın da strateji dəyəri aşağı düşəcək. Azərbaycanın iqtisadi dəstəyi olmasa, gürcülər inkişaf tempini saxlaya bilməyəcəklər. Eyni zamanda Azərbaycanın mövqelərinin zəifləməsi Gürcüstanı da xarici təsirdən çox asılı edir. Azərbaycan-Türkiyə tandemi ilə uğurlu əməkdaşlıq Gürcüstanı bölgənin strateji tranzit məntəqəsinə çevirib. Həmçinin hər iki ölkə gürcülərin iqtisadi tərəqqisi üçün əhəmiyyətli töhfə verir. Azərbaycanın dəstəyi mümkün böhran vəziyyətlərdə Tbilisi üçün xilas kəməridir. Bunlarla yanaşı, Azərbaycan Gürcüstanın daxili proseslərinə müdaxilədən çəkinir və bu da sabitliyin qorunması üçün vacib amildir. Məhz bu şərtlər Gürcüstandan obyektiv olaraq Azərbaycanın mövqelərinin müdafiəsini tələb edir. Bütün bölgədə sülh, tərəqqi üçün Tbilisi də üzərinə məsuliyyət götürməkdən çəkinməməlidir. Gələcəkdə böhranlardan, müharibədən qaçmaq üçün Gürcüstan siyasi baxımdan məsuliyyətli davranmalıdır. Gürcüstanın belə mövqeyi, qonşuların ərazi iddiaları, xəyali geosiyasi layihələrinə qarşı çıxması bölgənin gələcəyində mühüm rol oynaya bilər".

**İsmayıl**



# Xankəndidə heç bir humanitar fəlakət hökm sürmür

## Belə olmasaydı, restoranları hər gün müştərilərlə dolu olmazdı

**Ötən ilin dekabrın 12-dən başlayaraq Azərbaycanın QHT nümayəndələrinin və ekofəalların Şuşa-Xankəndi yolunda təbii sərvətlərimizin qanunsuz istismarına qarşı keçirdiyi aksiya erməni lobbisini təşvişə salıb. Hər zaman olduğu kimi, Amerika Erməniləri Milli Komitəsinin (ANCA) idarəçiliyi ilə dünya erməniləri, xüsusən ABŞ-dəki erməni lobbisi anti-Azərbaycan fəaliyyətini gücləndiriblər.**

Erməni lobbisi dünyanı aldadaraq Şuşa-Xankəndi yolunda azərbaycanlıların aksiyasını "blokada" və "humanitar böhran" olaraq təqdim etməyə çalışır. Bununla bağlı ermənilər müxtəlif ölkələrdə qondarma aksiyalar keçirir, guya, Xankəndidə insanların həyat şəraitinin dözülməz olduğunu qeyd edirlər. Təəssüf ki, bir sıra ölkələrin rəsmiləri ermənilərin bu yalanlarına inanırlar.

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctmai Birliyinin sədri Fuad Hüseynzadə "Şərq"ə açıqlamasında deyib ki, Xankəndidə sosial-iqtisadi vəziyyət heç də ermənilərin dünyaya yaydığı kimi deyil. Ekspert bildirib ki, hazırda orda insanlar, necə deyərlər, hər zamankı kimi kef-damaq içində yaşayırlar:** "Bunu ermənilərin sosial şəbəkələrdə gündəlik həyat şəraitləri ilə bağlı paylaşımlarından da açıq-aydın görmək mümkündür. Məsələn, Xankəndidəki "Status cafe" daima müştərilərlə dolu olur. Erməni gənclər də bu kafedən böyük sevinclə paylaşımlar edirlər. "Blokada"yıq deyən ermənilər hər gün Xankəndidəki "Sanremo" restoranında da kefləri çəkirlər. Qarabağda yaşayan erməni gülçülər isə sosial şəbəkələr vasitəsilə "Sevgililər günü" ərəfəsində öz güllərini heç məhdudiyyətsiz rahatca satıblar. Belə olan halda ermənilər hansı haqla blokada və humanitar böhrandan danışa bilərlər?! Ermənilərin bu yalanlarını Ukrayna Ali Radasının deputatı Vladimir Kreidenko "Moldova 1"ə açıqlamasında ifşa edib. Deputat yanvarın ortalarında Qarabağdakı restoranlarda yeməklərin sifarişini təşkil edərkən apardığı eksperimentlərdən danışıb və orada humanitar fəlakətin olmadığını sübut edib: "Biz indi yutub vasitəsilə yayılan sosial eksperimenti görə bilərik, burada fəallar Qarabağda uğurla yemək sifariş edirlər. Onlar çoxlu sayda insan üçün müxtəlif növ yeməklər sifariş edirlər və orada məhsul qıtlığı barədə onlara heç bir məlumat verilmir".

F.Hüseynzadə qeyd edib ki, hazırda Azərbaycanın qeyri-hökumət təşkilatları (QHT) nümayəndələri və ekofəallar Ermənistanın beynəlxalq cinayətlərinə qarşı etiraz edir: "Onlar azərbaycanlı mütəxəssislərin Azərbaycan yataqlarının qanunsuz istismarı ilə bağlı monitorinq aparmaq üçün əraziyə buraxılmamasına etiraz edirlər. Bu, Qarabağda yaşayan ermənilər üçün heç bir təhdid yaratmır. Aksiyanın Qarabağ ermənilərinin yaşadığı ərazilərin qazla təchizatı məsələsinə də heç bir aidiyyəti yoxdur".

**İsmayıl Qocayev**



# Tehrana növbəti zərbə

## Münhen Konfransına Rza Pəhləvinin dəvət edilməsi müəyyən ssenaridən xəbər verir

**İranın Rusiya ilə bərabər Münhen Təhlükəsizlik Konfransına çağırılmaması Tehranın qıcıqlanmasına səbəb olub. İran Xarici İşlər Nazirliyinin rəsmisi Nasir Kənani bununla bağlı narazılığını ifadə edib.**

O bildirib ki, təhlükəsizlik konfransı olsa da, bu, müharibəni qızışdıranların maraqları naminə keçirilir: "Beynəlxalq təhlükəsizlik" adlı belə bir konfransı təşkil etmək, İran və Rusiyanı dəvət etməmək o deməkdir ki, onlar fürsətdən istifadə edib beynəlxalq nizam və təhlükəsizliklə bağlı öz fərqli fikirlərini ortaya qoyublar". Xatırladaq ki, Qərbin ən böyük siyasi və iqtisadi rəqibi olan Çin belə bu konfransda iştirak edib. Ekspertlərə görə, Münhen Təhlükəsizlik Konfransına İran adından xaricdə yaşayan müxalifətçi Rza Pəhləvinin dəvət edilməsi Tehrana növbəti zərbədir.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Münhen konfransının beynəlxalq nüfuzunu və oradakı müzakirələrin geosiyasi proseslərə yön verdiyini nəzərə alsaq, İranla bağlı yeni siyasi konfiqurasiya bəllidir. Analitikə görə, İran rejiminin legitimliyi dünya tərəfindən qəbul edilmir:** "Rejimin dəyişməsi prosesinin Rza Pəhləvinin liderliyi altında həyata keçirilməsi ssenarisi var. Yanvarın 1-də İranın xaricdəki tanınmış simaları "2023-cü il İranda azadlıq və ədalətin bərqərar olması arzusuna" dair sosial media üzərindən kampaniyaya başladı. Birlik mesajı olaraq qəbul edilən bu kampaniya İran müxaliflərinin rejim əleyhinə koalisiyası kimi qiymətləndirilir. Daha sonra Rza Pəhləvinin lider kimi ortaya çıxması üzərində fikirlər irəli sürüldü. Şahzadənin yanvarın 13-də Londonda yerləşən "Manoto Tv"-ə müsahibəsində demokratik sistemi müdafiə etməsi bu prosesdə təkanverici rol oynadı. Sosial şəbəkələrdə "Sən mənim nümayəndəmsən" həştəqi ilə geniş kampaniya başlandı. Hətta "Pəhləvi mənim nümayəndəmdir" adlı petisiyaya da start verilib".

Ekspert qeyd edib ki, Pəhləviyə münasibətdə iki yanaşma var: "Onu yeni lider olaraq tam dəstəkləyənlər var. İranda demokratiyaya keçidi təmin edəcək "müvəqqəti fiqur" kimi görənlər də var. Hər iki yanaşma İran cəmiyyətində şahzadənin dayaqlarını getdikcə gücləndirir. Hər iki halda bu, İranda xalqın postmolla rejiminə hazırlaşdığından xəbər verir. Qərbdə də belə hazırlıq intensivləşib, Münhen konfransı prosesin görünən tərəfidir. Bizim üçün vacib olan mümkün rejim dəyişikliyində Cənubi Azərbaycandakı soydaşlarımızın taleyi, hüquqlarının necə təmin ediləcəyidir".

**İsmayıl Qocayev**

# Sadır Caparovdan örnək addım

## Qırğızıstana birlik-bərabərlik, həmrəylik hava-su kimi lazımdır



***"Prezident öz ölkəsinin inkişaf etmə imkanlarını hamıdan yaxşı bilir. Ona görə də sabiq prezidentləri bir araya toplayaraq səyləri birləşdirmək və ölkəni düşdüyü çətin vəziyyətdən çıxartmaq niyyəti güdür"***

**Qırğızıstan Prezidenti Sadır Caparov ölkənin bütün sabiq prezidentləri ilə görüş keçirib. İlk dəfə belə formatda təşkil olunan görüşdə Askar Akayev, Kurmanbek Bakiyev, Roza Otunbayeva, Almazbek Atambayev, Sooronbay Jeenbekov iştirak ediblər. Mətbuata elan olunan birgə bəyanatda qeyd olunub ki, keçmiş prezidentlər bir-birini bağışlayaraq millətin gələcəyi üçün birləşməyə qərar verdiklərini elan ediblər.**

Hazırkı Prezident Sadır Japarovun sözlərinə görə, Qırğızıstanın keçmiş ölkə başçıları onun "bir yumruqda birləşmək" təşəbbüsünü dəstəkləyiblər. Qeyd etmək lazımdır ki, indiki və eks-dövlət rəhbərlərinin bir araya gəlməsi, hər hansı məsələ ətrafında müzakirə aparması bəzi Qərb ölkələri istisna olmaqla Şərq aləmində, türk-müsəlman respublikalarında sıx rastlaşmadığımız, daha doğrusu, şahidlik etmədiyimiz mənzərədir. Lakin hər zaman vurğulanıb ki, hansısa təhlükəli proseslər qarşısında müəyyən dövrlərdə ölkəyə rəhbərlik etmiş şəxslərin görüşü, müzakirələri, birlik nümayiş etdirmələri olduqca önəmli təşəbbüsdür.

**Siyasi şərhçi Azər Həsrət "Şərq"ə açıqlamasında vurğulayıb ki, Qırğızıstanda yaşanan bu hadisə onu çox sevindirib. Ekspert bildirib ki, Şərq ölkələrində hakimiyyətdə olanların özündən əvvəlki rəhbəri inkar etməsi, saymazyana davranması ənənəsi çox geniş yayılıb:** "Qırğızıstan digər türk dövlətləri arasında iqtisadi imkanlarına görə ən geridə qalmış bir ölkədir. Bu ölkədə uzun müddət sabitlik olmayıb və hakimiyyət tez-tez dəyişib. Ölkəyə qısa zamanda xeyli prezident rəhbərlik edib. Yəni qırğızların başları siyasi hakimiyyət çəkişməsinə o qədər qarışıb ki, ölkəni inkişaf etdirmək, iqtisadiyyatını ayaqda tutmaq məsələsini həll edə bilməyiblər. Digər yandan Tacikistanın mütəmadi olaraq Qırğızıstan sərhədinə hərbi təcavüzü, kəndləri yandırması, insanları öldürməsi prosesi hələ davam edir. Bu problemləri aradan qaldırmaq üçün Qırğızıstana birlik-bərabərlik, həmrəylik hava-su kimi lazımdır. Hazırkı Prezident Sadır Caparov, həqiqətən də, birləşdirici lider kimi çıxış etməyə çalışır. Bütün siyasi fəaliyyəti dövründə korrupsiyada uzaq durub, milli dövlətçi xəttə sadiq qalıb. Türk dünyasının birliyinə yön vermiş bir liderdir. Təbii ki, öz ölkəsinin inkişaf etmə imkanlarını hamıdan yaxşı bilir. Ona görə də sabiq prezidentləri bir araya toplayaraq səyləri birləşdirmək və ölkəni düşdüyü çətin vəziyyətdən çıxartmaq niyyəti güdür".

*A.Həsrət vurğulayıb ki, Qərb ölkələrinin Qırğızıstanı daxildən qarışdırmaq cəhdləri hələ də qalır:* "Bu yaxınlarda "Azadlıq" radiosunun qırğız xidmətinin internet saytı bloklandı. Bilirsiz ki, "Azadlıq" radiosu fəaliyyət göstərdiyi ölkənin ictimai rəyini hakimiyyətlərə qarşı kökləməklə məşğul olub. Qırğızıstan hökuməti bu problemi kökündən həll etmək üçün radionun dağıdıcı və çaşdırıcı missiyasının önünü kəsmək qərarı aldı. Ölkənin bütün siyasi liderləri kənar qüvvələrin məkirli planlarına qarşı birlik içində olmalıdır ki, Qırğızıstan əvvəlki dönəmlərdə olduğu kimi qarışıqlıq yaşamasın. Ölkə sabit inkişaf yoluna qədəm qoya bilsin. Sadır Caparov bu istiqamətdə xeyli iş görüb. Həmçinin Azərbaycan-Qırğızıstan arasında əlaqələr də ən yüksək səviyyəyə çatdırılıb. Xatırladım ki, əvvəlki prezidentlərin dövründə iki türk respublikasının münasibətləri pozulma səviyyəsinə gəlib çatmışdı. Hətta Qırğızıstanda bəzi siyasilər işğalçı Ermənistana dəstək verirdilər. S.Caparovun dövründə bu problem də həllini tapdı. Qırğızıstanın Azərbaycandakı səfirliyi bir ildən artıqdır bərpa olunub. Hər iki ölkənin rəhbərləri qarşılıqlı olaraq yüksək səviyyəli səfərlər həyata keçiriblər. Eyni zamanda Qırğızıstanın Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyəti də məhz Sadır Caparov dövründə xeyli sürətlənib".

**İsmayıl Qocayev**

# Azərbaycanla Ermənistan arasında şərti sərhəd rejimi yaradıla bilər

## Hazırda sərhəd rejimi gömrük prinsiplərindən çox sırf hərbi yoxlamalar kimi gündəmə gəlir



**"Bildirdim ki, yaxşı olar, Ermənistan və Azərbaycan ikitərəfli qaydada nəzarət-buraxılış məntəqələrini Ermənistan-Azərbaycan sərhədində yaratsınlar".**

Bu fikirləri Prezident İlham Əliyev fevralın 18-də Münhendə televiziya kanallarına müsahibəsində söyləyib. Ölkə başçısı qeyd edib: "Biz bu təklifi vermişik, bu gün rəsmən vermişik. Daha əvvəl bu təklif qeyri-rəsmi kanallar vasitəsilə çatdırılıb. Ermənistan tərəfindən hər hansı mövqe səsləndirilmədi".

**Təşəbbüsün perspektivlərini "Şərq"ə dəyərləndirən siyasi şərhçi Aqşin Kərimov vurğulayıb ki, Azərbaycan-Ermənistan sərhədində ikitərəfli qaydada nəzarət-buraxılış məntəqələrinin yaradılması təklifi prosesin idarə edilməsində müvəqqəti xarakterə malik dərəcəsini göstərir:** "Bunun "açması" odur ki, sərhəd məntəqələri daimi əsaslarla işləyən rejimi müəyyən etmir, sadəcə olaraq yekun sülh müqaviləsinə qədərki dövrdə Qarabağa silah daşınmasının qarşısının alınmasına yönəlik addımdır. Bunu açılması gözlənilən Zəngəzur dəhlizinin iş rejimini müəyyən edə biləcək presedent kimi qiymətləndirmək, məncə, doğru yanaşma deyil. Zəngəzur dəhlizinin iş rejimi hələ o tikilib qurtardıqdan sonra müəyyən olunacaq".

Analitikin sözlərinə görə, hazırda sərhəd rejimi gömrük prinsiplərindən çox sırf hərbi yoxlamalar kimi gündəmə gəlir: "Yəni həmin rejim tətbiq edilsə, bu, Azərbaycan-Ermənistan şərti sərhədi kontekstində qüvvəyə malik olacaq. Azərbaycanın isə sərhədlərin ölçüsü ilə bağlı tələbləri özünün strateji məqsədlərində maksimal hədəflərə xidmət edir.

Digər yandan, hələ Ermənistanın Azərbaycanın cari təkliflərinə hansı reaksiya göstərəcəyi də bəlli deyil.

Böyük ehtimalla Nikol Paşinyan hökuməti müvafiq qərarlar qəbul edəcək, lakin işlək mexanizm üçün bu, həlledici bir meyar olmayacaq".

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;**

# Erməni yalanları ən yüksək kürsüdə ifşa olundu

## Onlar təkcə məscidləri deyil, alban kilsələrini də vəhşicəsinə dağıdıblar

**Azərbaycan dövlətinin hüquqi əsasları dünyəvi xarakter daşıyır. Bununla belə, dövlətimiz din və mənəviyyat sahəsinə böyük qayğı və dəstək göstərir, tolerantlığı prioritet məsələ hesab edir. Ölkəmizdə hər bir vətəndaşın vicdan azadlığı və dini ayinləri sərbəst yerinə yetirməsi Konstitusiyada müəyyən edilib. Ali Qanunda göstərilir ki, "bütün dini etiqadlar qanun qarşısında bərabərdir". Azərbaycanda yaşayan hər kəsin vicdan azadlığı, ictimai qaydanı pozmayan, yaxud ictimai əxlaqa zidd olmayan dini mərasimlərin yerinə yetirilməsinin sərbəstliyi təsbit olunur.**

Əhalisinin 95 faizi müsəlmanlardan ibarət olan Azərbaycan başqa konfessiyalara və millətlərə mənsub olan insanların dinc və mehriban yaşamasını təmin edir. Tolerantlıq nümunəsi hesab edilən Azərbaycan dini dözümlülük səviyyəsinə görə, əksər ölkəni qabaqlayır. Tolerantlığın Azərbaycan modeli müsəlman aləmi üçün nümunə sayılır və beynəlxalq konfransların, forumların çoxunda fəal müzakirə edilir. Ölkəmizdə rəsmi şəkildə 525 islam, 34 qeyri-islam təmayüllü dini icma, eyni zamanda 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Avropanın ən iri sinaqoqlarından biri 2003-cü ilin mart ayında məhz Bakı şəhərində açılıb. Ermənistanda isə ksenofobiya və irqi ayrı-seçkilik ən yüksək səviyyədədir. Monoetnik dövlət quran Ermənistanda daim digər xalqın nümayəndələrinə yuxarıdan aşağı baxmaqla yanaşı, faşizmə xas olan mövqe nümayiş etdirilib. Özlərini "Erməni Apostol Kilsəsinin mənsubları" adlandıran monofizit ermənilər nəinki digər dinlərə, hətta xristianlığın digər qollarına qarşı dözümsüzlük nümayiş etdiriblər. Maraqlıdır ki, bu kimi faktlar yalnız erməni cəmiyyətinə xas olan ənənə deyil, həmçinin dövlət səviyyəsində yürüdülən siyasətin tərkib hissəsidir. Ermənistanın 30 il işğal altında saxladığı torpaqlarımızda törətdiyi vəhşilik, dini-tarixi abidələrə tutduğu divan, məscidlərin darmadağın edilməsi və aşağılamaq məqsədilə donuz fermasına çevirməsi dəfələrlə gündəmə gətirilmiş, dəlillərlə isbat olunmuş real faktlardır. Azərbaycandakı tolerant mühiti və fərqli dinlərə olan nümunəvi münasibəti Ermənistanla müqayisə etməyimiz təsadüfi və əbəs yerə deyil. Məsələ ondadır ki, ötən gün Almaniyada, Münhen Təhlükəsizlik Konfransında iştirak edən Ermənistan Baş naziri Nikol Paşinyan Azərbaycanı absurd iddialarla ittiham etməkdən çəkinməyib. Qarabağda salamat məscid qoymayan ermənilərin baş naziri Azərbaycanı həyasızcasına suçlayıb. Nə qədər qəribə və gülünc səslənsə də, Nikol Paşinyan erməni vəhşiliklərini gizlətmək üçün Azərbaycanı "məscidləri dağıtmaqda" ittiham edib.

Azərbaycan Prezidenti İlham Əliyev Münhendəki konfransda çıxışı zamanı bildirib ki, 30 il ərzində bizim torpaqlarımız Ermənistanın işğalı altında olub. Dövlət başçısı vurğulayıb ki, biz ləyaqətimizi, ərazi bütövlüyümüzü və ədaləti bərpa etmək, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün döyüşməli, 3 min həyatı qurban verməli olduq: "Ona görə də biz, sadəcə, Qarabağda bugünkü vəziyyəti və ya oradakı erməni icması ilə əlaqələrimizi kontekstdən çıxararaq 30 illik işğalı, Livan böyüklüyündə ərazinin tamamilə xarabalıqlar içində olduğunu unutmamalıyıq. Bu, yadplanetlilər tərəfindən edilməyib, gəlib bizim torpağımızı işğal etmiş, bir milyon azərbaycanlını evindən didərgin salmış, 67 məsciddən 65-ni dağıtmış, onları təhqir etmiş qonşularımız tərəfindən edilib. Biz onları qovandan sonra indi onlar ədalət üçün yalvarırlar. Ərazimizi 30 il ərzində işğal altında saxlayanlar bizi işğalda günahlandırırlar".



Ölkə rəhbəri qeyd edib ki, Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, azlıqdır: "Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda bütün azlıqlar mədəniyyət, dil, həmçinin təhlükəsizlik də daxil olmaqla, eyni hüquq və üstünlüklərdən faydalanırlar. Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq".

Ermənistan Baş naziri Nikol Paşinyan isə dövlət başçısı İlham Əliyevin əsaslı açıqlamalarına cavab vermək üçün ağlına gələni danışıb. İddia edib ki, guya, 2017-ci ildə Azərbaycanda yeni yollar tikmək üçün bir neçə məscid dağıdılıb: "Prezident Əliyev qeyd etdi ki, bilmirəm bir neçə min məscid dağıdılıb. Yeri gəlmişkən, sovet dövründə Azərbaycanda təxminən 1560 məscid dağıdılmışdı. Bu, Sovet İttifaqı üçün adi hal idi. Sovet dövründə Ermənistanda kilsələr, məscidlər dağıdılmışdı. Bilirsiniz, Qarabağ erməniləri sovet dövrünün borcunu ödəməməlidirlər. Bilirsiniz, bu, çox mühümdür, bu, çox təhlükəli söhbətdir. Bəzən elə bir təəssürat yaranır ki, Azərbaycan tərəfi bütün vəziyyətə dini don geyindirmək istəyir. Bu, çox təhlükəlidir. Münaqişənin heç bir dini konteksti yoxdur. Buna sübut olaraq deyə bilərəm ki, bizim ölkədə müsəlman icması yaşayır, məscid fəaliyyət göstərir. Budur reallıq. Azərbaycan tərəfindən səslənən ifadələr nə deməkdir?".

Paşinyanın "biz məscidləri dağıtmamışıq" bəyanatına Qarabağdakı separatçılardan da dəstək gəlib. Qondarma qurumun "dövlət nazirinin müşaviri" Artak Beqlaryan teleqram kanalında yazıb ki, "ermənilər heç bir məscidi dağıtmayıblar, bacardıqları qədər qoruyub saxlayıblar". O bildirib ki, guya, ermənilər qəsdən heç bir məscidi dağıtmayıb: "Əksinə, Şuşa məscidini bərpa etmişik. Məscidləri kilsələr kimi bacardığımız qədər qoruyub saxlamışıq". Yəni Paşinyanı "müdafiə etməyə" çalışan separatçı deyib ki, "məscidləri kilsələrə çevirərək qoruyub saxlayıblar".

Paşinyanın sərsəm açıqlamaları Ermənistan ictimaiyyətində də məyusluq doğurub. Jurnalist Arsen Xaratyan Paşinyanı hazırlıqsız olmaqda, lazımsız məqamları gündəmə gətirməkdə ittiham edib: "Azərbaycanın dəfələrlə səsləndirdiyi və indi də ittiham etdiyi məsələlərə, məscidlərin dağıdılması və s. problemlərə cavablar əvvəlcədən hazırlanmalıdır. Yəni üzərində işlənmiş cavablar olmalıdır".

**Növbəti erməni həyasızlığı ilə bağlı "Şərq"ə danışan millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov deyib ki, Ermənistan məscidlərimizlə yanaşı, kilsələrimizi də dağıdıb. Deputat bildirib ki, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistanın Baş naziri N.Paşinyan növbəti dəfə saxtakarlıq edərək Azərbaycan həqiqətlərini təhrif etməyə, Azərbaycanı günahlandırmağa çalışıb. Prezident İlham Əliyev isə Paşinyanın ittihamlarına tutarlı cavablar verib:**
"Paşinyanın çıxışında Azərbaycanı keçmiş Qarabağ münaqişəsini dini zəmində münaqişə kimi təqdim etməkdə günahlandırmağa çalışdı. Əslində isə Qərbdə Qarabağ münaqişəsini dini zəmində münaqişə kimi təqdim etməyə çalışan məhz Ermənistandır. Uzun illərdir Ermənistan Qərbdə xristian ölkəsi olduğu üçün bölgədə müsəlman azərbaycanlıların təqibinə məruz qaldığını iddia edir və bununla xristian Qərb dövlətlərinin və həmin ölkələrin xristian əhalisinin dəstəyini qazanmağa çalışır. Ermənistanın Azərbaycanı bu məsələdə günahlandırması növbəti riyakarlıqdır. Prezident İlham Əliyevin ermənilərin Qarabağda 67 məscidi barbarcasına dağıtması ilə bağlı səsləndirdiyi faktlara Paşinyanın cavabına gəldikdə isə bu məsələdə də baş nazir riyakarlığa yol verərək məscid və kilsələrin sovet dövründə dağıdıldığını bildirərək, Ermənistanda müsəlman azlıqlar üçün şərait yaradıldığını iddia etdi. Əslində isə reallıq ondan ibarətdir ki, Ermənistan təkcə məscidlərimizi dağıtmayıb, onların içərisində donuz və inək saxlayıb".

C.Məmmədov qeyd edib ki, ermənilər təkcə məscidləri deyil, alban kilsələrini də vəhşicəsinə dağıdıblar:
"Beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün isə Şuşada və İrəvanda bir Azərbaycan məscidini təmir edərək dünyaya "fars məscidi" kimi təqdim etməyə çalışıblar. Bakının mərkəzində bu gün erməni kilsəsi Azərbaycan dövləti tərəfindən içərisində 5000 ədəbiyyatla mühafizə olunur. Paşinyanın nə deməsindən asılı olmayaraq reallıq bundan ibarətdir. Yekunda qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev növbəti dəfə beynəlxalq platformada Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırdı, erməni yalanlarını ifşa etdi".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Artıq gecdir, xilasetmə işləri dayandırılmalıdır

## Hadisə zamanı dağıntının miqyası, hava şəraiti, şəxsin fiziki və psixoloji durumu onun sağ qalmasında böyük rol oynayır



**Türkiyənin fəlakət zonasında axtarış-xilasetmə əməliyyatları başa çatıb. Zəlzələ nəticəsində ölənlərin sayı isə 41 mini ötüb.**

Qeyd edək ki, bu qərar BMT-nin Koordinasiya Agentliyi ilə ev sahibi ölkənin mərkəzi hökuməti və yerli hökuməti arasında qəbul edilir.

Axtarış-xilasetmə işləri, adətən, fəlakətdən beş-yeddi gün sonra, bir-iki gün ərzində heç kim sağ tapılmadıqda dayandırılır. Lakin bu məqamdan sonra da insanların sağ-salamat xilas edildiyi məlumdur.

Bəs, əməliyyatın nə vaxt bitəcəyinə necə qərar verilir?

**Bu barədə "Şərq"ə açıqlama verən psixoloq Azad İsazadə deyib ki, dağıntılar altında iki həftədən çox qalmaq nadir hallarda olur. Hər keçən gün insanın sağ qalmaq ehtimalı azalır.** Həmçinin, dar bir yerdə sıxışıb qalmaq istilik və karbon qazının artmasına səbəb olur, zərərçəkən boğularaq ölə bilir.

Ekspertin sözlərinə görə, hadisə zamanı dağıntının miqyası, hava şəraiti, şəxsin fiziki və psixoloji durumu onun sağ qalmasında böyük rol oynayır: "Hər şeydən əvvəl hava şəraiti önəmlidir. Çox isti və tərləmənin çox olduğu yay aylarında dəri vasitəsilə maye itkisi çox olduğu üçün erkən dövrdə susuzluğun zərərli təsirləri ortaya çıxa bilər ki, bu da ölüm riskinin artması deməkdir. Xilasetmə əməliyyatının dayandırılması ilə bağlı qərarı vermək asan deyil. Ona görə də bu normativləri müəyyən edərkən BMT psixoloji yox, fizioloji amilləri əsas götürür. Hətta bu zaman yay-qış standartları da fərqli hesablanır. Dağıntılar altında qalan insanın yay və qış aylarında susuzluğa və soyuğa dözümü eyni deyil. Məhz bu səbəbdən də əməliyyatın bitmə vaxtını müəyyənləşdirmək çox çətindir. Türkiyədə baş verən dəhşətli fəlakətdən 14 gün keçib. Bu müddət ərzində isə dünya Türkiyə üçün səfərbər oldu. 80-yə yaxın ölkənin axtarış-xilasetmə qrupları gecə- gündüz Türkiyə üçün çalışıb, sağ qalma ehtimalı olan bir nəfərin xilası üçün saatlarla dağıntılar altında axtarış apardı.

Bundan sonra tamamilə dağılmış və yerə çökmüş binaların altından kiminsə sağ çıxması beyin ölümü keçirən və aylarla komada yatan birinin ayılması ehtimalı ilə eynidir. Milyonda bir ehtimala görə isə dövlət resurslarını uzun müddət bu sahəyə yönəldə bilməz. Məgər soyuqda, qarda küçələrdə qalan minlərlə insanın həyatı təhlükədə deyil? Onları da xilas etmək, evlərdə yerləşdirmək lazımdır. Ona görə də artıq Türkiyə dövlətinin xilasetmə işlərini dayandırıb resurslarını daha zəruri sahəyə yönəltməsi başadüşüləndir. Tutaq ki, bundan sonra bir həftə də xilasetmə işləri davam etdirildi. Uzağı, bir insanı sağ tapmaq mümkün ola, ya yox. Amma həmin bir həftə ərzində küçədə qalan yüzlərlə insanın həyatını xilas etmək olar. Dövlətin bütün gücünü və resurslarını xilasetmə işlərinə cəlb etməsi onların haqqına girmək olar".

Zəlzələdən sonra bir insanın dağıntılar altında sağ qalma ehtimalına gəldikdə isə A.İsazadə deyib ki, sağ qalmaq üçün psixoloji güc və idarəetmə amili də mühüm faktordur: "Dağıntılar altında qalan insan uzun müddət sağ qalmaq üçün psixoloji baxımdan da güclü olmalıdır. Daha az bağırıb, daha az hərəkət edən insanlar panikaya düşmür və enerjisini qənaətlə xərcləyir. İnsanın fiziki və ruhi sağlamlığı ilə yanaşı, immun sisteminin olması da vacibdir. Ona görə də onun zəlzələ zamanı dağıntılar altında sağ qalmasının müddəti fərqli ola bilər. Bunların hamısı həm fərdi xüsusiyyətlərə, həm də qorxu hissinə bağlı olan məsələlərdir".

**Şəymən**

# Müəllimə qarşı aqressiyanı daha da artıracaqlar

## Şagirdləri nizam-intizama cəlb etmək şagirdi cəzalandırmaqla mümkün olacaq iş deyil

**"Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları"nın pilot tətbiqinə başlanılıb. Bu barədə Elm və Təhsil Nazirliyinin məlumatında bildirilib. Qeyd edilib ki, ilkin mərhələdə 300-dən çox məktəbdə tətbiq ediləcək pilot layihə 322 min nəfərdən çox şagirdi əhatə edəcək. Həmin müəssisələrdə davranış qaydalarının tətbiqi tədris ilinin sonunadək davam edəcək.**



Qeyd edək ki, orta məktəblərdə nizam-intizam qaydalarını pozan şagirdlər üçün ötən il cəza tədbirləri müəyyənləşdirildi. Davranış səviyyələrinə görə tətbiq ediləcək inzibati tədbirlərə müəllim baxışı, qeyri-verbal münasibət, şagirdlərlə sakit söhbət, xəbərdarlıq, uzaqlaşdırma, valideyn ilə əlaqə saxlamaq, dərsdən sonra şagirdin məktəbdə saxlanması, psixoloqa yönləndirmə, sarı xəbərdarlıq, narıncı xəbərdarlıq, qırmızı xəbərdarlıq. Məlumdur ki, davranış qaydalarının pozulması cəza tədbirlərinin "yüngül, orta, ağır, yüksək ağırlıqlı" kimi dərəcələrə bölünməsi məktəblərdə son illərdə baş verən "ağla zərər" hadisələr, bu azmış kimi baş verənlərin videoya çəkilərək sosial şəbəkələrdə yayımlanmasıdır. Daha nələr baş verməyib ki, orta məktəblərdə; müəllimin təhqir olunmasından tutmuş yumurta-pomidor "qonaqlığına" qədər. Açığı, orta məktəblərdə "davranış pozuntusu"nun ən yaxşı nümunəsi soyuqdan donan şagirdlərin bunu əllərində plakat tutaraq ölkəyə elan etməsiydi. Amma bəziləri bunu da zidd davranış olaraq dəyərləndirdi. İndi pilot layihənin icrasına başlanması məktəblərə, ümumən təhsilimizə nə qazandıracaq?

**Təhsil eksperti, fəlsəfə doktoru Kamran Əsədov "Şərq"ə açıqlamasında şagirdlərin inzibati cəzalara məhkum edilməsinin dünya təcrübəsində olmadığını dedi:**

- Belə bir şey dünyann heç bir yerində yoxdur. Bunu özlərindən uydururlar. Təhsilin keyfiyyətini yüksəltmək, şagirdləri nizam-intizama cəlb etmək şagirdi cəzalandırmaqla mümkün olacaq iş deyil. Şagirdin cəzalandırılması dünyada qəbul edilmir. Şagirdi cəzalandırmaqla nə onu nizam-intizama cəlb etmək mümkündür, nə də təhsilə marağını artırmaq. Əksinə, şagirdi cəzalandırmaqla onda məktəbə, müəllimə qarşı aqressiyanı artırmış olacaqlar, şagirdlər müəllimlərə, məktəbə qarşı birləşəcək artıq. Bu da məktəblərdə daha ciddi problemlər yaradacaq. Təlim-tədris sistemində cəza anlayışı ümumiyyətlə yoxdur.

Müəllim-valideyn əməkdaşlığını sağlam şəkildə qurmaq, şagirdi təşviq etmək, onda təlimə, təhsilə həvəs oyatmaq, şagirdə məsuliyyət yükləmək anlayışları var, bunu da bizim Təhsil Nazirliyi və tabeliyində olan qurumlar bacarmır. Məktəblər artıq idarəolunmaz səviyyəyə çatıb. Məktəblilər də həmçinin. Bunun da baiskarı yarıtmaz fəaliyyət göstərən Təhsil Nazirliyidir, Azərbaycan təhsilini bu cür bərbad hala salanlardır. Mən artıq bir neçə dəfə onlara səslənmişəm ki, cənablar, xanımlar, sizin vəzifə başında qaldığınız hər saniyə təhsilimizi uçuruma daha da yaxınlaşdırır. Lütfən, istefa verin, gedin. İşi bacaranlar gəlsin. İşi bacaranlara tapşırmaq lazımdır.

**Məlahət Rzayeva**

# Yardımlar davam edir

## Türk QHT-ləri zəlzələdən zərər çəkmiş bölgələrdə vətəndaşlara kömək əlini uzadır





**Türkiyədə mərkəzi Kahramanmaraş olan zəlzələlərdən zərər çəkən 10 şəhərdə çox sayda Qeyri-Hökumət Təşkilatları yardım işləri aparır.**

"Şərq" xəbər verir ki, "Əsrin fəlakəti" olaraq xarakterizə edilən Kahramanmaraşda baş verən zəlzələlərdən zərər çəkən şəhərlərdə başda bir çox vəqf və dərnək olmaqla, türk QHT-ləri təbii fəlakət qurbanlarına dəstək olmaq üçün çalışır.

Zəlzələdən zərər çəkən Kahramanmaraş, Hatay, Adıyaman, Osmaniye, Adana, Qaziantep, Diyarbəkir, Malatya, Şanlıurfa və Kilisə bir çox QHT yardım çatdırıb.

Yardım təşkilatları 10 şəhərdə dağıntılarda axtarış və xilasetmə işlərinə dəstək verməklə yanaşı, müxtəlif nöqtələrdə qurulan yemək paylama məntəqələri, səyyar mətbəx və səyyar sobalarla zəlzələ qurbanlarına xidmət göstərir.

Bu QHT-lərdən Türk Qızılayı, İnsan Hüquqları və Azadlıqları Fondu (İHH), Türkiyə Gənclik Fondu (TÜGVA), Türkiyə Gənclik və Təhsil Xidmətləri Fondu (TÜRGEV), Ensar Fondu, Beşir Dərnəyi, Anadolu Federasiyası, AHBAP Dərnəyi, Qadın və Demokratiya Vəqfi (KADEM), Türkiyə Texnologiya Komandası (T3) Vəqfi, LÖSEV, AKUT Axtarış-Xilasetmə Dərnəyi, Türkiyə Fırıncılar Federasiyası, Anadolu Gənclik Dərnəyi, Cansuyu Yardımlaşma və Həmrəylik Dərnəyi, İnsan Vəqfi, Elm Yayma Dərnəyi, Dəniz Fənəri Dərnəyi, Yerüzü Həkimləri Dərnəyi və s. nümunə göstərilə bilər.

### İHH Humanitar Yardım Fondu 5 min 852 nəfərlik heyəti ilə zəlzələ bölgəsində

Türkiyə QHT-lərinin zəlzələ bölgəsində yardım səfərbərliyi davam edir.

Bu çərçivədə İHH Humanitar Yardım Fondu zəlzələ bölgələrində 5 min 852 axtarış-xilasetmə işçisi və yardım könüllüləri ilə fəaliyyətlər həyata keçirir.

Zəlzələnin ilk saatlarından axtarış-xilasetmə və humanitar yardım işlərində iştirak edən İHH-nin axtarış-xilasetmə qrupları bu günə qədər ölən və yaralanan 2 min 934 nəfəri dağıntılar altından çıxarıb, yardım könüllüləri isə yüz minlərlə insana yardım çatdırıb.

Fond zəlzələ bölgəsində 1 milyon 284 min 976 nəfərə isti yemək paylayıb.

Bundan əlavə, zəlzələdən zərər çəkən bölgələrə ərzaq, çəkmə, palto, uşaq bezi, un və su kimi məhsulların olduğu 750 yük maşını göndərilib.

İHH zəlzələ qurbanlarına 143 min 317 ədəd adyal və 226 min 596 dəst paltar paylayıb.

Bundan başqa İHH 5 milyon 304 min 721 ədəd çörək, 1 milyon 348 min 249 ədəd su, 57 min 873 qutu gigiyena məhsulları, 12 min 612 ədəd uşaq qidası, 65 min 949 ədəd uşaq bezi və 322 min 624 ədəd ərzaq qutusu paylayıb.

Zəlzələdə evi dağılan ailələri Hataydakı Reyhanlı Təhsil Kampusuna yerləşdirən İHH, eyni zamanda zəlzələdən zərər çəkmiş uşaqlar üçün psixososial dəstək işləri də görür.

İHH psixoloqu Şevket Kalkan zəlzələnin uşaqlar üzərində yaratdığı travmanın izlərini silmək üçün bu sahədə mütəxəssis olan psixoloqlar tərəfindən aktif fəaliyyət göstərildiyini qeyd edib.

### Qadın və Demokratiya Fondu (KADEM) bütün Türkiyəyə zəlzələ qurbanları üçün "Yaraları birlikdə sağaldaq" çağırışı edib

Türkiyənin qeyri-hökumət təşkilatlarından biri olan Qadın və Demokratiya Fondu (KADEM) bütün Türkiyəyə zəlzələ qurbanları üçün "Yaraları birlikdə sağaldaq" çağırışı edib.

KADEM mərkəzi Kahramanmaraş olan 7,7 və 7,4 bal gücündə zəlzələlərdən sonra ilk andan etibarən hərəkətə keçərək başda Kahramanmaraş, Hatay, Osmaniye, Adıyaman, Qaziantep, Şanlıurfa, Diyarbəkir, Malatya, Kilis və Adana olmaqla, Suriya və ətraf bölgələrdə çətinliklərin aradan qaldırılması və zəlzələ qurbanlarının təcili ehtiyaclarının qarşılanması üçün səfərbərliyə başlayıb.

KADEM zəlzələdən zərər çəkənlər üçün başlatdığı yardım kampaniyasında bütün Türkiyəni təcili ehtiyaclarla bağlı köməyə çağırıb. Kampaniya çərçivəsində bölgəyə termal geyim, adyal, paltar, şərf, papaq, corab, uşaq qidası və uşaq bezi, gigiyenik məhsullar, vitaminlər, fərdi qulluq məhsulları və zəruri ehtiyacları çatdıran fond həmçinin nağd pul yardımı toplayıb.

Fondun hesabına edilən 11 milyon 220 min TL-lik nağd ianə ilə birlikdə ümumilikdə 4 TIR ərzaq, 2 TIR su, 3 tanker yanacaq, 1 TIR uşaq bezi, uşaq qidası və nəm salfet, 3500 adyal, 8000 şarf, papaq və əlcək, 25000 gigiyenik məhsul, 5000 yağmurluq, 65 min nəfərlik qadın, kişi və uşaq alt paltarları, 22 minlik qadın, kişi və uşaq termal geyimləri, 1000 poverbank, 2000 şal, 250 piknik qaz balonu, 30000 dəst corab, 110 çadır və 110 soba zəlzələ bölgəsinə çatdırılıb.

# Boyun və bel yırtığı...

## Bu xəstəlik daha çox kök, uzun müddət maşın sürən insanlarda müşahidə olunur



### "18-20 yaşına qədər düzgün formalaşmayan əzələ-skeleti onurğa aralıqlarının tez daralaraq aradakı diskləri sıxaraq yırtıq yaranmasına səbəb olur"

**"Son dövrlər insanların əsasən oturaq həyat şəraitinə meyilli olması ilə əlaqədar onurğa xəstəlikləri artıb. Demək olar, 20 yaşdan sonra əksər insanlarda ara-sıra bel ağrıları qeyd olunur. Bu da onurğa problemlərinin ilkin başlanğıc əlaməti kimi düşünülməlidir" . Bu sözləri Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, neyrocərrah Cəmil İsgəndərov deyib.**

Nazirliyin sosial media hesablarına onurğa xəstəlikləri ilə bağlı gələn sualları cavablayan neyrocərrah əlavə edib ki, onurğanın ən çox rast gələn xəstəliklərindən biri fəqərəarası disklərin yırtıqlarıdır. Bundan əlavə, fəqərə sürüşmələri (spondilolistezlər), onurğa kanalının darlığı (stenozlar) da geniş yayılmış xəstəliklərdəndir.

Fəqərəarası disk yırtığının əsas əlamətlərinə gəldikdə isə C.İsgəndərov deyib ki, fəqərəarası disk yırtıqları onurğanın hansı nahiyəsində olmasından asılı olaraq müvafiq əlamətlərlə özünü göstərir: "Fəqərəarası disk yırtıqlarının əsas əlamətlərindən biri ağrı sindromudur. Onurğanın hansı nahiyəsində disk yırtığı yaranıbsa, həmin nahiyədə olan lokal-yerli ağrılarla yanaşı, adətən bu ağrılar sıxılmış sinir boyunca yayılması ilə xarakterizə olunur. Belə ki, boyun nahiyəsində olan yırtıqlar zamanı yuxarı ətraflarda (qollarda), bel nahiyəsində olduqda aşağı ətraflarda (ayaqlarda), onurğanın döş nahiyəsində olduqda isə qabırğalar boyunca yayılan ağrılar qeyd olunur. Ağrı sindromundan əlavə xəstələrdə müvafiq sinir boyunca hissiyat və hərəkət pozğunluqları da müşahidə oluna bilər ki, bu da onlarda yeriş pozğunluğuna, əmək qabiliyyətinin itirilməsinə gətirib çıxara bilir. Bu səbəbdən də xəstələrdə erkən mərhələlərdə düzgün diaqnozun qoyulması vacibdir. Xəstəliyin diaqnozu MRT (Maqnit Rezonans Tomoqrafiya) vasitəsilə qoyulur. Əgər xəstədə müvafiq klinik əlamətlər varsa, yəni fəqərəarası diskin yırtığına uyğun əlamətlər təyin olunursa, MRT müayinəsi mütləqdir. Bəzən xəstələr səhvən ilkin olaraq KT müayinəsindən keçərək bizə müraciət edirlər".

**Fizioterapevt Ramin Quliyev isə "Şərq"ə açıqlamasında deyib ki, fəqərəarası diskin elastik quruluşa malik olması onurğanın dayanıqlılığına, hərəkətliliyinə və yüklənmələrə qarşı davamlı olmasına, onurğaya təsir edən zərbə şəklindəki qüvvələrin dəf edilməsinə və qüvvənin ətraf toxumalara bərabər bir şəkildə ötürülməsinə xidmət edir.** Disklərin iç qismində pulpoz nüvə adlandırılan jeleyə bənzər yumşaq bir sahə, bunun ətrafında daha sərt bir fibroz həlqə, fəqərələrə baxan səthlərdə isə hər iki tərəfdə hailin lövhələr adlandırılan qığırdaq toxuması vardır. Xaricdəki təbəqənin anatomik tamlığının pozulması nəticəsində içəridəki yumşaq toxumanın xaricə doğru axmasına yırtıq deyilir. Bel yırtıqları 4 mərhələdə formalaşır: bulging (qabarma), protruziya, ekstruziya və sekvestr. Yırtıqlaşan, yəni xaricə doğru axan disk, daşma dərəcəsinə görə onurğa beyninin müvafiq sinirlərini sıxışdırır. Beləcə bel ağrısı ilə birlikdə sinir boyunca ayaqda ağrı, hissiyatın pozulması, ayaq zəifliyi kimi əlamətlər müşahidə olunur. Bundan başqa, yırtıqlaşmış diskdən ifraz olunan bəzi kimyəvi maddələr də sinir köklərinə təsir edərək ağrıya səbəb olurlar. Orqanizm yaşlandıqca fəqərələr arasındakı disklər elastikliyini və zərbəni dəfedici özəlliklərini itirir və degenerativ disk xəstəliyi şəklində yaşlanmanın təbii bir nəticəsi olaraq meydana çıxır".

Həkimin sözlərinə görə, bel və boyun yırtığının meydana gəlmə səbəbini əvvəlcə 18 yaşına qədər ibarət olan onurğa yüksəklikləri, onurğaya yapışan bağ və əzələlərin güclü, yenə buradakı qan dövranının nizamlı olub-olmadığında axtarmaq lazımdır: "Adamın genetik quruluşu, məsələn, doğuşdan bel nahiyəsindəki çuxurun daha çox olması, ombaya və ayaqlara düşən yükün çox olmasına yol açaraq bel nahiyəsində yırtığa səbəb ola bilər.

İrəli dövrlərdə meydana gələ biləcək bel və boyun yırtığının qorunmaq üçün uşaqlıq dövründə əzələ və skelet quruluşlarının qiymətləndirilməsi və ona uyğun məşq proqramının təqib edilməsi vacibdir. 18-20 yaşına qədər düzgün formalaşmayan əzələ-skeleti onurğa aralıqlarının tez daralaraq aradakı diskləri sıxaraq yırtıq yaranmasına səbəb olur. Uzun müddət oturmaq və ağır idman etmək də arxa və boyun sərtliyinə səbəb ola bilər. Boyun və bel yırtığı adətən ağır çəki qaldıran, texnoloji cihazlardan daha çox istifadə edən və uzun müddət maşın sürən insanlarda müşahidə edilir".

**R.Quliyev deyib ki, fəqərələrarası yırtığın əsas əlamətləri tək və ya hər iki aşağı ətrafa yayılan ağrılar, ayaqlarda uyuşmalar, hərəkət məhdudluğu, yeriyən və oturan zaman hiss olunan ağrılardır. Bel yırtığının pəncədə iflic, tez yorulma, sidik saxlaya bilməmək, yeriyə bilməmək kimi ağırlaşmaları meydana çıxa bilər:** "Bu simptomlar görüldüyündə sinir toxumasının ciddi dərəcədə sıxılmaya məruz qala biləcəyi nəzərə alınaraq, qısa müddət ərzində müayinə və müalicə üçün həkimə müraciət etməyiniz məsləhət görülür. Əks təqdirdə bu kimi hallarda bərpası çətin olan və ya mümkün olmayan fəsadlar əmələ gələ bilər. Onu da deyim ki, müasir diaqnostik metodlardan olan Maqnit Rezonans Tomoqrafiya (MRT) üsulu bel-fəqərə arası disk yırtıqlarının təyin edilməsində mühüm əhəmiyyətə malikdir.

Bəzi hallarda bel nahiyəsinin rentgen müayinəsində bel yırtığının olmasını, ölçülərini qeyd edirlər. Bu doğru deyil, çünki rentgenoqrafiya heç bir zaman disk yırtığının varlığı haqqında məlumat verə bilməz. Fəqərələrarası yırtığın diaqnozunun və müalicə taktikasının seçilməsində qızıl standart; həkimin kliniki müayinəsi və təcrübəsidir".

**Şəymən**





## Sosial şəbəkələr üçün sərfəli mobil internet!

**Sərfəli qiymət qarşılığında üstün xidmət təklif edən "Nar" aktiv sosial şəbəkə istifadəçiləri üçün** "CavanNar 9" tarifini tövsiyə edir. Bu tarifi istifadə edən "Nar" abunəçiləri ümumilikdə 10 GB həcmində internet paketini ayda cəmi 9 AZN-ə əldə edir.

Bundan başqa, "CavanNar 9" istifadəçisi təqdim edilən paketi bitirdiyi halda, əlavə internet paketini də daha sərfəli qiymətə sifariş edə bilər. "CavanNar 9" istifadəçiləri üçün nəzərdə tutulan əlavə internet paketləri qiyməti 500 MB üçün 2 AZN, 1 GB üçün 4 AZN təşkil edir.

"CavanNar 9" tarifində olanların daha rahat ünsiyyəti üçün də əlavə olaraq aylıq 500 dəqiqə tarifdaxili danışıq bonusu təqdim olunur.

Tarifə qoşulmaq üçün sadəcə *777#9#YES yığmağınız kifayətdir. Tarif haqqında daha ətraflı məlumatı nar.az/cavannar-9 səhifəsindən əldə edə bilərsiniz.


# Nazilə Səfərlidən etiraf

## "Evdə az olsam da, uşaqlarımı cəmiyyətə yararsız insan kimi böyütməmişəm"



**"Nənə statusunu hələ qəbul edə bilməmişəm".**

"Şərq" xəbər verir ki, bunu şairə Nazilə Səfərli "7 canlı" verilişində deyib. O bildirib ki, evdə bir can da var, soyadında artım hiss edir: "Evdə az olsam da, uşaqlarımı cəmiyyətə yararsız insan kimi böyütməmişəm. İnanıram ki, oğlum nəvəmə yaxşı tərbiyə verəcək".

**Sücayət**

**Elanlar**

24.11.1984 tarixdə Ağdam rayon Hərbi Komissarlığı tərəfindən Abdullayev Eyvaz Həbib oğluna verilmiş A 456764 nömrəli Əfqanıstan veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Nevzorov Valeriya Vasilyeviçə məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Əzizov Natiq Əzizağa oğluna məxsus MN 0034754 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Elan**

Nəzərinizə çatdırırıq ki, biz "Gulf Velding Services Est" MMC şirkətini 10.02.2023-cü il tarixindən satmışıq. Tərəfimizdən bütün ödənişlər tamamlanmışdır. Kiminsə ödənişlə bağlı şikayət və təklifləri varsa göstərilən tarixdən 5 iş günü ərzində bizə müraciət edə bilər.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 444



## Havanın çirklənməsi...

### Gənclərdə aşağı təzyiqin səbəbi tapıldı

**Böyük Britaniyada aparılan elmi araşdırma gənclərdə qan təzyiqinin aşağı düşməsinin səbəbini ortaya çıxarıb. Məlum olub ki, buna səbəb havanın çirklənməsidir.**

Çirkli hava xüsusən yeniyetmələrdə qan təzyiqinin kəskin aşağı düşməsinə səbəb olur. Bu barədə məlumatı "NTV.com" CNN-ə istinadən yayıb. Xəbərdə bildirilir ki, atmosferdə nitrogen dioksidin yüksək miqdarı, həmçinin havanın 2,5 mikrometrdən kiçik maye və ya qatı hissəciklərə məruz qalması gənclərdə qan təzyiqinin aşağı düşməsinə səbəb olur. Alimlər havanın çirklənməsiylə qan təzyiqi arasında necə bir əlaqə olması üzərində uzun zamandır çalışır. London alimləri bununla bağlı fərqli yaş və etnik qruplar arasında tədqiqat aparıb. 3 min 200-dən çox gəncin cəlb edildiyi "Yeniyetmələrin sosial rifahı və sağlamlıq göstəriciləri" adlı tədqiqat hava çirklənməsinin başlıca səbəblərindən biri olduğunu göstərir. Tədqiqat zamanı illik hava çirklənməsi hesabatlarından istifadə edilib. Tədqiqatda hava çirklənməsinə səbəb olan partikul maddələrin insanın bir saç telinin 20-də biri qalınlığında olduğu, nəfəs alarkən ağ ciyərlərə keçdiyi, nəfəs verildikdə isə ağ ciyərlərdən çıxmayıb qana qarışdığı məlum olub. Bu maddələr beyin ritmini pozaraq qan təzyiqində oynamalara, həmçinin nəfəs yollarında iltihaba səbəb olur, nəticədə bir çox xəstəliklərin yaranmasına gətirib çıxarır.

**Məlahət**

## Hataydakı görüntü mat qoydu

### Yalnız göyərçinlərin yuvası olan sütün dağılmadı



**Türkiyədəki dəhşətli zəlzələdən artıq 14 gün keçib.**

Hatayda, demək olar, bütün binalar ya dağılıb, ya xəsarət görüb. Lakin dağıntılar arasındakı mənzərə görənləri təəccübləndirib. Big.az bildirir ki, üçmərtəbəli binaların birində yalnız göyərçinlərin yuvası olduğu sütün dağılmayıb.

## Kosmosda ad günü belə qeyd olundu



**Beynəlxalq Kosmik Stansiyanın heyəti ekipajın komandiri Sergey Prokofyevin ad gününü qeyd ediblər.**

Lent.az bildirir ki, onlar "Mimoza" salatı və tort hazırlayıblar. Bunun üçün əl altında olan "çoxmillətli" ərzaqdan istifadə edilib. Ad gününün videosu "Roskosmos"un saytında yerləşdirilib.

## Demet Özdemirdən mənalı çağırış

### Aktrisa ad günü hədiyyəsi əvəzinə pərəstişkarlarından ianə istəyib



**Aktrisa Demet Özdemir sosial media hesabından Kahramanmaraşda 11 vilayətdə baş verən zəlzələdən sonra zəlzələ qurbanları üçün izləyicilərinə səslənib.**

**"Şərq" xəbər verir ki, fevralın 26-da 31 yaşı tamam olacaq Özdemir ad günündə pərəstişkarlarından zəlzələ qurbanlarına çadır almaq üçün Ehtiyaclar Xəritəsinə ianə vermələrini istəyib. Demet Özdemir "Mənim üçün ən gözəl hədiyyə olacaq", - deyib.**

**Turan**

## Kralın tacqoyma mərasimində çıxış etməkdən imtina ediblər



**Məşhur britaniyalı müğənnilər Adel və Ed Şiran Kral III Çarlzın mayın 6-da baş tutacaq tacqoyma mərasiminə qatılmaqdan imtina ediblər.**

**Axşam.az xəbər verir ki, bu barədə "Daily Mail" nəşri məlumat yayıb. Bildirilib ki, kral onların imtinasından məyus olub.**

**Ehtimallara görə, iştirakdan imtinaya müğənnilərin iş qrafikinin sıxlığı səbəb olub.**

## Hollivud aktyoru xəstəxanaya yerləşdirildi



**Riçard Gir Meksikada xəstəxanaya yerləşdirilib.**

**Aktyor 2 həftə virus və soyuqdəymədən əziyyət çəksə də sağalmırdı.**

**Həkimlər ona pnevmoniya diaqnozu qoyub.**

**Bir gün sonra aktyor evə buraxılıb. Xanımı paylaşımında bildirib ki, onlar ailəlikcə xəstə olublar.**



# Dünyanın ən təhlükəsiz şəhərləri açıqlandı

### Avstraliya və Yeni Zelandiya hər cür fəlakət zamanı yaşanıla biləcək ən yaxşı ölkələrdir

**Alimlər, baş verə biləcək təbii fəlakətlər, Yerə meteor düşməsi və ya nüvə silahı işə salınacağı təqdirdə ən təhlükəsiz ölkələr və şəhərlərin siyahısını tərtib edib. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, alimlər Yer planetində yaşanacaq hər cür təbii və ya texnogen fəlakətlər zamanı salamat qalacağı daha çox ehtimal edilən, insanların da rahat bir şəkildə uzun müddət sığına biləcəkləri əraziləri müəyyənləşdirib.**



Təhlükəsiz ərazilər və şəhərlərin seçimi ərzaq ehtiyatı, iqlim şərtləri, yerli istehsal baxımından özünü təmin etmə gücünə uyğun aparılıb. "The Guardian"ın yazdığına görə, baş verə biləcək mümkün fəlakətlər zamanı ən təhlükəsiz ərazilərin müəyyənləşməsi üçün 38 ada ölkəsi ilə bağlı tədqiqat aparılıb. Nəticədə Avstraliya və Yeni Zelandiya hər cür fəlakət zamanı yaşana biləcək ən yaxşı ölkələr seçilib. Müəyyən edilib ki, Avstraliya ərzaq tədarükü baxımından 10 milyon insanı qida ilə təmin etməyə qadirdir. "Wellington Otago" Universitetinin professoru Nik Vilson isə Yeni Zelandiyanın sahib olduğu məhsulların hətta ən dəhşətli fəlakətlərin baş verəcəyi halda cəmi 61 faiz azalacağını və bu halda da ölkənin öz vətəndaşlarını qida ilə təmin edə biləcəyini açıqlayıb. İslandiya, Solomon adaları, Vanuatu (Sakit Okeanın cənubunda dövlət) da təhlükəsiz və yaşana biləcək ölkələr sırasındadır. Bu ölkələr hətta Günəş şüalarının anidən azalacağı halda insanlar üçün yetərli miqdarda ərzaq istehsal edə biləcəklər. Bu ölkələrin qida sənayesi belə bir gücə malikdir. Qeyd edilir ki, alimlərin araşdırması "Risk Analysis" adlı elmi jurnalda dərc edilib.



**Məlahət**



# Çay orqanlara necə təsir edir?

### Hər gün qara çay içmək qan təzyiqini tarazlaşdırmağa kömək edir

**Çay hər kəs üçün əvəzolunmaz içkidir. Bəs, hər gün çay içmək orqanizmə necə təsir edir? "Şərq" türk mediasına istinadən xəbər verir ki, tərkibində A, D və B12 vitaminləri, həmçinin natrium və kalium olan çay içdikdə orqanizmimizə həm müsbət, həm də mənfi təsir edir.**

### 1- Qan təzyiqini aşağı salır

Hər gün qara çay içmək qan təzyiqini tarazlaşdırmağa kömək edir. Xüsusən də yüksək təzyiq şikayətləriniz varsa, nizamlı olaraq çay içərək dincələ bilərsiniz.

### 2 - Xolesterolu aşağı salır

Yüksək xolesterol ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Hər üç nəfərdən biri yüksək xolesteroldan əziyyət çəkir və kişilər qadınlardan daha çox risk altındadır. Hər gün qara çay içdiyiniz zaman xolesterolunuzu aşağı sala və balanslaşdıra bilərsiniz.

### 3- Dişlərin çürüməsinin qarşısını alır

Ağız sağlamlığı üçün çox faydalı olan çay dişlərdəki boşluqlara yerləşmiş bakteriyaları öldürə və kariyesin yaranmasının qarşısını ala bilər. Gündə 3 stəkan çay dişlərinizi çürüklərdən qoruya bilər.

### 4 - Diabet riskini azaldır

Hər gün çay içmək 2-ci tip diabetə səbəb olan qan şəkəri balanssızlığından qoruyur. Təbii ki, çaya şəkər əlavə etməsəniz... Unutmayın ki, şəkərli diabet yarım milyard insanı əhatə edən çox yayılmış bir xəstəlikdir.

### 5 - Baş ağrısına səbəb ola bilər

Hər şeyin artığı zərərlidir, təbii ki, bu qayda çaya da aiddir. Hər gün çox çay içmək miqren, baş ağrısı və əsəbiliyə səbəb ola bilər. Çayın tərkibindəki kofein miqdarı çox olduğundan, həddindən artıq istehlakdan qaçmaq lazımdır.

### 6 - Yuxu problemlərinə səbəb ola bilər

Nahardan sonra bir və ya iki fincan çay həzmi dəstəkləyir və sağlam yatmağınıza kömək edə bilər. Digər tərəfdən, həddindən artıq çox içmək yuxuya getməyinizi əngəlləyər. Tərkibində yüksək kofein olduğu üçün çayın həddindən artıq istehlakı narahatlıq, stress səviyyələrini artıra və yuxu problemlərinə səbəb ola bilər.

**Turan**

## Klinik Tibbi mərkəzdə xəstənin ağciyərini örtən təbəqə soyuldu

### 26 yaşlı xəstə üzərində aparılan torokoskopik əməliyyat uğurla başa çatıb



**Dövlət xəstəxanaları arasında ilk dəfə olaraq Kliniki Tibbi Mərkəzdə (KTM) torokoskopik (qapalı-VATS) üsulla xəstənin sağ ağciyərinin üst payındakı bullaların sağlam ağciyər toxuması ilə birgə kəsilməsi və plevranın (ağciyəri örtən təbəqənin) soyulması əməliyyatı icra edilib.**

26 yaşlı xəstə üzərində aparılan torokoskopik əməliyyat uğurla başa çatıb.

Uzman torakal cərrahı Fəhmin Əmirovun sözlərinə görə, əməliyyat zamanı xəstədə hər hansı bir ağırlaşma qeydə alınmayıb:

"Pasiyent nəfəs darlığı, öskürək, sinə ağrısı şikayəti ilə KTM-ə müraciət edib. Rentgen müayinəsi nəticəsində ağciyərin sağ tərəfində spontan gərginlik pnevmotoraksının olduğu müşahidə edilib. Bu səbəbdən xəstə 15.02.2023 tarixində Torakal cərrahiyyə şöbəsinə yerləşdirilib. Şöbədə xəstənin sağ ağciyərinə plevral drenaj yerləşdirilib. Plevral drenaj prosedurundan sonra tomoqrafiya edilib. Tomoqrafiya nəticəsində sağ ağciyərin alt və orta payında tam atelektaziya, üst payında isə partlamış bulla aşkarlanıb. Plevral drenajdan hava qaçağı (air leak) davam etdiyi üçün trokoskopik əməliyyat planlaşdırılıb. Əməliyyat 38 dəqiqə davam edib və 2 ədəd 1 sm ölçüsündə kəsikdən uğurla icra olunub. Xəstə spontan tənəffüslə şöbəyə yerləşdirilib. Heç bir həyati təhlükəsi yoxdur".

Pasiyent Ehtiram Cəbiyevin sözlərinə görə heç vaxt ağciyəri ilə bağlı narahatlıq yaşamayıb: "İlk ağrılarım 2 həftə öncə işə gedən zaman başlayıb. Döş qəfəsində olan ağrılar əvvəllər məndə heç vaxt olmayıb. Günü-gündən daha da pisləşdiyim üçün özəl klinikalardan birinə müraciət etdim. Ümumi analizlər, rentgen müayinəsindən keçdikdən sonra sağ ağciyər pərdəsinin deşildiyi müəyyən olundu. Daha sonra mən Kliniki Tibbi Mərkəzə müraciət etdim. Yenidən aparılan müayinələr nəticəsində diaqnozum dəqiqləşdi və müalicələrə başlanıldı. Burada tibb personalı həqiqətən çox peşəkardı və hər şey yüksək səviyyədədir. Hazırda özümü yaxşı hiss edirəm. Bir neçə günə normal həyatıma qayıdacağam".

## Nikahların sayı artıb, boşanmalar azalıb



**2022-ci il ərzində ölkədə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 61939 nikaha daxilolma və 15983 boşanma halları qeydə alınıb.**

Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib.

*Qeyd edilib ki, əhalinin hər 1000 nəfərinə 2021-ci illə müqayisədə nikahların sayı 5,6-dan 6,1-ə qədər artıb, boşanmaların sayı isə azalaraq 1,7-dən 1,6-ya düşüb.*

*Nikah səviyyəsi Qarabağ (7,1), Mil-Muğan və Şərqi Zəngəzur (6,9), Dağlıq Şirvan (6,8), Bakı şəhəri, Mərkəzi Aran və Şirvan-Salyan (6,4), Şəki-Zaqatala (6,3), Qazax-Tovuz və Quba-Xaçmaz (6,2) iqtisadi rayonlarında ölkə göstəricilərindən yüksək olub.*